

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 iyun 2026-cı il, cümə axşamı
№ 100 (7167)
Qiymәti 60 qәpik


# Regional təhlükəsizlikdən qlobal sabitliyə...



## Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqlar beynəlxalq sülh üçün əsaslı töhfədir

Bax səh. 2

## Siyasi partiyalar cəmiyyətdə həmrəylik mühitinin qorunması prosesində fəal iştirak edir

Bax səh. 5




## Qurtuluş məfkurəsi: xilaskarlıq missiyasından Zəfər salnaməsinə



Bax səh. 4

### Sahibkarlar üçün kredit təminatı və faiz subsidiyası mexanizmi təkmilləşdirilib

Bax səh. 3

### Bütün xərc hədəfləri yerinə yetirilib

Bax səh. 3

### Azərbaycan - Yaponiya: İkitərəfli münasibətlərin aktual gündəliyi

Bax səh. 5

### Türk dövlətlərinin bank-maliyyə hədəfləri

Bax səh. 6




Bax səh. 7




Bax səh. 7

# Regional təhlükəsizlikdən qlobal sabitliyə...

## Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqlar beynəlxalq sülh üçün əsaslı töhfədir

Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik anlayışı bütövlükdə kompleks şəkildə təsbit olunur. Belə ki, artıq qlobal təhlükəsizlik deyəndə regionların həm hərbi, həm iqtisadi, həm siyasi, həm də ticari doktrinaları əsas götürülür. Dünyanın müxtəlif regionlarında baş verən münaqişələr, geosiyasi qarşıdurmalar, enerji və nəqliyyat marşrutları uğrunda rəqabət qlobal sabitliyi ciddi şəkildə sınağa çəkdiyi kimi, həm də qlobal ticari imkanları məhdudlaşdırır. Son illərdə beynəlxalq sistemdə müşahidə olunan dəyişikliklər göstərir ki, regional təhlükəsizlik məsələləri qlobal təhlükəsizlik arxitekturasının ayrılmaz hissəsinə çevrilib. Bir bölgədə baş verən gərginlik qısa müddətdə qlobal iqtisadiyyata, enerji bazarlarına, logistika zəncirlərinə və siyasi münasibətlər sisteminə təsir göstərir.

Bu baxımdan Cənubi Qafqaz uzun illər beynəlxalq ekspertlər tərəfindən risk zonalarından biri kimi qiymətləndirilirdi. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, işğal siyasəti və separatizmin dəstəklənməsi regionun inkişafını onilliklər boyu ləngitmişdi. Münaqişə yalnız iki ölkə arasındakı münasibətlərə deyil, bütövlükdə regionun iqtisadi potensialına, nəqliyyat-kommunikasiya layihələrinə və beynəlxalq əməkdaşlıq imkanlarına mənfi təsir göstərirdi.

Lakin son altı ildə regionda tamamilə yeni geosiyasi reallıq formalaşıb. Azərbaycanın Vətən müharibəsində qazandığı qələbə beynəlxalq hüququn bərpasını təmin etməklə yanaşı, Cənubi Qafqazda davamlı sülh üçün yeni imkanlar yaradıb. Ərazi bütövlüyünün və dövlət suverenliyinin tam təmin olunması regionda yeni inkişaf mərhələsinin əsasını qoyub. Bu mərhələnin əsas xüsusiyyəti ondan ibarətdir ki, təhlükəsizlik və inkişaf artıq bir-birini tamamlayan anlayışlar kimi çıxış edir.

Azərbaycanın həyata keçirdiyi siyasət yalnız milli maraqların qorunmasına deyil, bütövlükdə regionun sabitliyinə və beynəlxalq əməkdaşlığın genişlənməsinə xidmət edir. Bakı tərəfindən irəli sürülən sülh gündəliyi, nəqliyyat layihələri, iqtisadi inteqrasiya təşəbbüsləri və regional əməkdaşlıq platformaları Cənubi Qafqazı qarşıdurma məkanından əməkdaşlıq məkanına çevirmək məqsədi daşıyır. Məhz bu səbəbdən Azərbaycanın formalaşdırdığı yeni reallıqlar artıq regional çərçivəni aşaraq qlobal təhlükəsizlik və sabitlik baxımından da mühüm əhəmiyyət kəsb edir.

### Hərbi təhlükəsizliyin yeni modeli: Cənubi Qafqazın strateji transformasiyası

Vurğulandığı kimi, son illərdə beynəlxalq təhlükəsizlik sistemində ciddi dəyişikliklər baş verir. Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə davam edən böhranlar və böyük dövlətlər arasındakı geosiyasi rəqabət ənənəvi təhlükəsizlik mexanizmlərinin effektivliyini sual altına qoyub. Bir çox ölkələr təhlükəsizlik siyasətlərini yenidən nəzərdən keçirir, yeni tərəfdaşlıqlar qurmağa və regional əməkdaşlıq formatlarını gücləndirməyə çalışırlar.

Belə bir şəraitdə Azərbaycan Cənubi Qafqazda yeni təhlükəsizlik modelinin formalaşdırılmasına nail olub. Ən mühüm məqamlardan biri odur ki, bu model xarici hərbi qarşıdurmaların regiona daşınmasını deyil, regional sabitliyin qorunmasını əsas götürür. Azərbaycanın son illərdə həyata keçirdiyi siyasət nəticəsində Cənubi Qafqaz təhlükəsizlik baxımından daha proqnozlaşdırılan və müstəqil aktor kimi çıxış edən məkana çevrilməkdədir. Azərbaycanın Türkiyə ilə strateji müttəfiqlik münasibətləri və Şuşa Bəyannaməsi regional təhlükəsizliyin möhkəmləndirilməsində mühüm rol oynayır. Bu sənəd yalnız iki ölkə arasında əməkdaşlığı dərinləşdirmir, eyni zamanda regionda sabitliyin qorunmasına xidmət edən mühüm mexanizm yaradır. Bununla yanaşı, Azərbaycan Avropa ölkələri ilə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirərək çoxşaxəli tərəfdaşlıq modeli formalaşdırır. Bakının təhlükəsizlik konsepsiyasının əsas xüsusiyyəti hərbi gücün sülhün təmin edilməsinə xidmət etməsidir. Azərbaycan güclü müdafiə potensialını regional sabitliyin qorunması və yeni risklərin qarşısının alınması üçün istifadə edir. Bu yanaşma həm qonşu dövlətlər, həm də beynəlxalq tərəfdaşlar tərəfindən müsbət qarşılanır. Bakının sülh təşəbbüsləri, hərbi təhdidlərin aradan qaldırılması səyləri Cənubi Qafqazda olduqca vacib bir müstəvi yaradır. Azərbaycanla İtaliya, Rumıniya və digər Avropa ölkələri arasında hərbi əməkdaşlığın genişləndirilməsinə dair sənədlər imzalanıb. Bu əməkdaşlıq həm Azərbaycana, həm də Cənubi Qafqaza çox şey qazandırır. Müasir dövrdə təhlükəsizlik yalnız sərhədlərin qorunması demək deyil. Enerji infrastrukturlarının təhlükəsizliyi, nəqliyyat marşrutlarının müdafiəsi, kibertəhlükəsizlik və strateji kommunikasiyaların qorunması da ümumi təhlükəsizlik sisteminin tərkib hissəsinə çevrilib. Azərbaycan bütün bu istiqamətlər üzrə uğurlu fəaliyyət göstərərək regionun təhlükəsizlik xəritəsində mühüm mövqe tutur. Nəticədə Cənubi Qafqaz getdikcə Avrasiya məkanında sabitlik yaradan əsas geosiyasi platformalardan birinə çevrilir.

### Təhlükəsizlik və iqtisadi inkişaf: bir-birini tamamlayan amillər

Tarixi təcrübə göstərir ki, uzunmüddətli iqtisadi inkişaf yalnız sabit təhlükəsizlik mühitində mümkündür. Münaqişələr və hərbi risklər investisiya axınını zəiflədir, ticarət əlaqələrini məhdudlaşdırır və iqtisadi potensialın reallaşmasına mane olur. Azərbaycan məhz bu reallığı nəzərə alaraq postmünaqişə dövründə təhlükəsizlik və inkişaf siyasətini paralel şəkildə həyata keçirir. Azərbaycan postmüharibə dövründə hərbi gərginliyin artmasına deyil, azalmasına çalışdı və buna nail oldu. Ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması, Azərbaycanın qətiyyəti sayəsində ortaya çıxmış Zəngəzur dəhlizi (TRIPP) marşrutunun reallaşmasına nail olunması bölgədə yeni imkanlar yaradır.

Azərbaycan hərbi təhlükəsizlik məsələsi ilə iqtisadi inkişaf və əməkdaşlıq meyarlarını paralel axına çevirir. Bu isə bütövlükdə region üçün yeni bir gələcək deməkdir. Təsadüfi deyil ki, artıq Orta Dəhliz marşrutu dünyada ən təhlükəsiz marşrut hesab olunur. Bu isə məhz Azərbaycanın sayəsində baş verib. Qlobal ticarətin aortalarından biri sayılan, gələcəkdə müxtəlif seqmentlər üzrə şaxələndirilməsi nəzərdə tutulan Orta Dəhliz həm Avropa, həm Mərkəzi Asiya, həm də Uzaq Şərq ölkələri üçün vacib bir nüansdır. Yeni nizamda qitələrarası əlaqələrin inkişafı fonunda bu dəhliz açar rolunu oynayacaq. Beləliklə, paralel olaraq həm təhlükəsizlik predmetləri, həm də iqtisadi inkişaf perspektivi Azərbaycanın formalaşdırdığı yol xəritəsi üzrə paralel inkişaf edir. Bakının əsas məqsədi regionu iqtisadi əməkdaşlıq və qarşılıqlı fayda platformasına çevirməkdir.

Bununla yanaşı, enerji təhlükəsizliyi məsələsində də Azərbaycan mühüm rol oynayır. Avropanın enerji mənbələrini şaxələndirmək siyasətində Azərbaycanın yeri getdikcə artır. Enerji və nəqliyyat layihələrinin təhlükəsiz şəraitdə fəaliyyət göstərməsi isə regionun ümumi sabitliyinə birbaşa bağlıdır. Bu gün Azərbaycan təhlükəsizliyin iqtisadi dividendlər yaratdığını praktiki olaraq nümayiş etdirən ölkələrdən biridir. İnfrastruktur layihələri, azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq proqramları və beynəlxalq investisiyaların artması bunu bir daha təsdiq edir. Beləliklə, təhlükəsizlik və iqtisadi inkişaf paralel şəkildə irəliləyərək regionun gələcəyini formalaşdıran iki əsas sütuna çevrilir.

**Ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması, Azərbaycanın qətiyyəti sayəsində ortaya çıxmış Zəngəzur dəhlizi (TRIPP) marşrutunun reallaşmasına nail olunması bölgədə yeni imkanlar yaradır. Azərbaycan hərbi təhlükəsizlik məsələsi ilə iqtisadi inkişaf və əməkdaşlıq meyarlarını paralel axına çevirir. Bu isə bütövlükdə region üçün yeni bir gələcək deməkdir**



### Sülh və təhlükəsizlik naminə regional əməkdaşlıq...

Müasir beynəlxalq münasibətlərdə regional əməkdaşlıq təhlükəsizliyin və inkişafın əsas təminatçılarından biri hesab olunur. Qeyd olunduğu kimi, Cənubi Qafqaz uzun illər münaqişələr və qarşıdurmalar səbəbindən bu imkanlardan tam yararlana bilməyib. Lakin yeni mərhələdə regionda formalaşan reallıqlar əməkdaşlıq üçün geniş perspektivlər açır. Azərbaycanın yanaşmasının əsas xüsusiyyəti ondan ibarətdir ki, Bakı regionun inkişafını yalnız milli maraqlar prizmasından deyil, ümumi regional sabitlik baxımından qiymətləndirir. Bu siyasət həm siyasi dialoqun genişlənməsinə, həm də iqtisadi əməkdaşlığın gücləndirilməsinə şərait yaradır. Müasir mərhələdə Azərbaycanın Cənubi Qafqazın yenidən formalaşdırılmasında aparıcı rol oynaması bütün dünya tərəfindən qəbul olunur.

Azərbaycan tərəfindən irəli sürülən nəqliyyat və logistika təşəbbüsləri regional münasibətlərin inkişafında da əsas amil kimi çıxış edir. Qarşılıqlı iqtisadi maraqların formalaşması isə münaqişə risklərini azaldan mühüm ştrixlərdən biridir. Təbii ki, bütün bunlar nəticə etibarı ilə Cənubi Qafqaz regionu dövlətlərinə sürətli inkişaf tempi yaradacaq. Azərbaycan Prezidentinin apardığı siyasət Cənubi Qafqaz üçün yeni bir gələcək yaradır:

- Siyasi sabitlik və diplomatik balans - münaqişəsiz qonşuluq modeli;
- İqtisadi inteqrasiya - vahid ticarət və logistika məkanının formalaşması;
- Humanitar əməkdaşlıq - xalqlar arasında etimad və qarşılıqlı anlayış mühiti.

Bu gün Cənubi Qafqaz yeni əməkdaşlıq modelinin formalaşdığı region kimi diqqət çəkir. Qarşılıqlı fayda, bərabərhüquqlu tərəfdaşlıq və davamlı inkişaf prinsipləri üzərində qurulan bu model gələcəkdə regionun qlobal iqtisadi və siyasi proseslərdə rolunu daha da artıracaq.

**Azərbaycan Prezidentinin apardığı siyasət Cənubi Qafqaz üçün yeni bir gələcək yaradır:**

**- Siyasi sabitlik və diplomatik balans - münaqişəsiz qonşuluq modeli;**

**- İqtisadi inteqrasiya - vahid ticarət və logistika məkanının formalaşması;**

**- Humanitar əməkdaşlıq - xalqlar arasında etimad və qarşılıqlı anlayış mühiti**

### Ən vacib şərt - davamlı sülh

Bütün bu inkişaf strategiyasının reallaşmasının əsasında isə ilk növbədə sülh və sabitlik amili dayanır. Sirr deyil ki, müharibələr iqtisadi potensialı məhdudlaşdırır, insan resurslarının inkişafına mane olur və regional əməkdaşlıq imkanlarını zəiflədir. Buna görə də Cənubi Qafqazın gələcəyi üçün əsas prioritet davamlı sülhün təmin olunmasıdır.

Son illərdə regionda baş verən dəyişikliklər göstərir ki, sülh ideyası artıq yalnız diplomatik bəyanat deyil, real siyasi tələbatdır. Cəmiyyətlər inkişaf, rifah və təhlükəsizlik istəyir. Ermənistanda keçirilən son parlament seçkiləri bir daha göstərdi ki, hətta uzun illər regional təhdidə çevrilmiş, antoqonist iddialar ilə çıxış edən Ermənistan cəmiyyəti də artıq Azərbaycanın ortaya qoyduğu səyləri, müəyyənləşdirdiyi sülh strategiyasını dəstəkləyir. Nikol Paşinyanın seçki təbliğatı dövründə istinad etdiyi sülh və əməkdaşlıq tezisləri ona qələbə gətirdi. Bu tezislər isə Azərbaycanın regionun gələcək gündəmini müəyyənləşməsi üçün formalaşdırdığı proqramdır. Azərbaycan bütün mərhələlərdə sülhün tərəfdarı olduğunu nümayiş etdirib. Bakı dəfələrlə bildirib ki, regionun gələcəyi qarşıdurmada deyil, əməkdaşlıqdadır. Məhz buna görə də Azərbaycan uzunmüddətli sülh sazişinin imzalanmasını və hüquqi əsasların yaradılmasını vacib hesab edir. Davamlı sülh isə dövlətlərin bir-birinin suverenliyinə hörmət etməsi, ərazi bütövlüyünü tanıması və gələcək münasibətləri beynəlxalq hüquq prinsipləri əsasında qurması deməkdir. Başqa sözlə, Ermənistan yeni mərhələdə həm bütövlükdə Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının gücləndirilməsi, həm iqtisadi dayanıqlığının artırılması, həm də əməkdaşlıq perspektivinin yaranması üçün birmənalı şəkildə sülh prosesinə sadiqlik nümayiş etdirməli, Azərbaycanın irəli sürdüyü şərtləri yerinə yetirməli, konstitusiyadan Azərbaycan ərazilərinə olan əsassız iddiaları aradan qalxmasını təmin etməlidir. Bu, həm bölgəmizin təhlükəsiz gələcəyi, həm də iqtisadi inkişafı, rifahı üçün ən vacib şərtdir. Azərbaycanın təqdim etdiyi inkişaf modeli məhz bu məntiqə əsaslanır. Təhlükəsizlik, iqtisadi tərəqqi və regional əməkdaşlıq yalnız sülh şəraitində tam reallaşa bilər. Unudulmamalıdır ki, sülh prosesi bütövlükdə Cənubi Qafqazın gələcək inkişaf strategiyasının mərkəzi elementidir.

*Pərviz SADAYOĞLU*

# Sahibkarlar üçün kredit təminatı və faiz subsidiyası mexanizmi təkmilləşdirilib



## İpoteka və Kredit Zəmanət Fondunun bu istiqamətdəki səlahiyyətləri "Azərbaycan Biznesinin İnkişafı Fondu"na verilib

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə təminat və faiz subsidiyası mexanizmlərinə bəzi dəyişikliklər edilib və qaydalar təkmilləşdirilib. Dəyişikliklər sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə təminat və faiz subsidiyası mexanizmlərinin vahid əsaslarla verilməsini, daha səmərəli subsidiya təminatını və bu sahədə institusional tənzimləmənin təkmilləşdirilməsini nəzərdə tutur. Məqsəd sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin təkmilləşdirilməsi və biznes kreditləşməsi prosesinin daha səmərəli idarə edilməsidir.

Yeni qaydalara əsasən, İpoteka və Kredit Zəmanət Fondu tərəfindən sahibkarlara manatla verilən kreditlər üzrə təminat və həmin kreditlərə hesablanmış faizlər üzrə subsidiyaların çatdırılması bundan sonra İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən icra olunacaq. Yeni biznesin kreditlərə görə, subsidiya təminatı səlahiyyətləri yeni dövlət orqanına verilib. Qərar işğaldan azad edilmiş ərazilər istisna olmaqla, ölkənin digər regionlarında tətbiq olunacaq.

### Elektron kredit və zəmanət sisteminin tətbiqi genişlənəcək

Fərman qüvvəyə mindiyi tarixədək sahibkarların manatla aldıqları kreditlərə verilmiş təminat və həmin kreditlərə hesablanmış faiz subsidiyaları üzrə hüquqlarının həyata keçirilməsi, habelə öhdəliklərin icrası İpoteka və Kredit Zəmanət Fondu tərəfindən təmin ediləcək. Sonrakı mərhələdə artıq həmin funksiyaları "Azərbaycan Biznesinin İnkişafı Fondu" ASC yerinə yetirəcək.

Qeyd edək ki, biznes üçün nəzərdə tutulmuş təminat və faiz subsidiyası mexanizmləri çərçivəsində müvəkkil təşkilatlar tərəfindən sahibkarlıq subyektlərinə təqdim edilən kreditlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 13 faiz təşkil edir, Təqdim edilən kreditlər üzrə hesablanmış illik faiz dərəcəsinin 50 faizi dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır. Təminat və faiz subsidiyası mexanizmlərinin tətbiqi "Elektron kredit və zəmanət" informasiya sisteminin fəaliyyəti Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla, ölkənin digər ərazilərini əhatə edənədək həm elektron qaydada, həm də sənədlərin kağız formada qəbulu və icrası yolu ilə həyata keçiriləcək. Ancaq bununla yanaşı, "Elektron kredit və zəmanət" informasiya sisteminin təkmilləşdirilməsi, o cümlədən təminat və faiz subsidiyası mexanizmlərinin həmin sistem üzərindən tam tətbiqinin təmin edilməsi üçün müvafiq qurumlara 3 ay müddətində zəruri tədbirlər görmək tapşırılıb.

Dövlət başçısının fərmanına əsasən, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması qaydasının tətbiqi nəticələri nəzərə alınmaqla, həmin mexanizmlərin təkmilləşdirilməsi də nəzərdə tutulur. Belə ki, azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi üçün əlavə tədbirlərin görülməsi nəzərdə tutulur.

### 2018-ci ildən yaradılmış maliyyə zəmanəti

Qeyd edək ki, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafına nail olmaq, maliyyə sahəsində risklərin bölüşdürülməsinə əsaslanan kreditləşdirmə sistemini formalaşdırmaq və biznesin kredit resurslarına çıxışını genişləndirmək məqsədilə 2018-ci ildən etibarən maliyyə zəmanəti mexanizmi yaradılıb. Həmin mexanizm çərçivəsində sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsində zəmanət hüquqlarını İpoteka və Kredit Zəmanət Fondu həyata keçirib. Fond sahibkarlıq subyektlərinə dövlət tərəfindən zəmanət və subsidiyaların verilməsində tənzimləyici rol oynayaraq kreditlər üzrə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdırıb. Biznes üçün yeni maliyyə dəstəyi aləti hesab edilən bu mexanizmin tətbiqi sayəsində sahibkarlıq subyektlərinin daha inamlı və etibarlı şəkildə maliyyələşdirməsi təmin edilib. İndiyə qədər zəmanət və subsidiya üzrə verilmiş kreditlərin məbləği 700 milyon manatı ötüb.

Zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki illik faiz dərəcəsi 6,2 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min - 5 milyon manat civarında təşkil edib. Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələrə, maşın və avadanlıq istehsalına, ticarət və xidmət sektoruna yönəldilib. Zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayrılan kreditlər vasitəsilə maliyyələşən layihələr üzrə 6000-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

### Biznes kreditləşməsi prosesinin daha səmərəli idarə edilməsi

Ümumilikdə, biznesin maliyyə əlçatanlığının təmin edilməsi məqsədilə dövlətin güzəşt siyasətinin əsas məqsədi qeyri-neft sənaye sahələrinin inkişafı, kənd təsərrüfatı sahəsinin inkişafı üzrə istehsal yönümlü və logistik xidmət layihələrinin dəstəklənməsi, anbar komplekslərinin qurulması, turizmin inkişafında dövlətin dəstəkləyici rolunun artırılması, balıqçılıq və akvakultura təsərrüfatlarının yaradılması, "yaşıl", rəqəmsal inkişaf və innovasiya yönümlü sahələrə maliyyə qayğısının göstərilməsindən ibarətdir.

Bu baxımdan kreditlərə təminat verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması üzrə yeni mexanizmlərin yaradılması, sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin təkmilləşdirilməsi və biznes kreditləşməsi prosesinin daha səmərəli idarə edilməsi maliyyə vasitəçiliyini daha da yaxşılaşdıracaq. Qarşıdakı strateji dövr ərzində kredit mexanizminin həm kəmiyyət, həm də keyfiyyət baxımından yaxşılaşdırılması, resurs əhatəliliyinin və təqdim edilən kredit çeşidlərinin artırılması hədəf kimi müəyyən edilib ki, "Azərbaycan Biznesinin İnkişafı Fondu" biznes kreditləşməsi prosesində daha çevik rol oynaya bilər.

*E.CƏFƏRLİ*

# Bütün xərc hədəfləri yerinə yetirilib

## 2025-ci il dövlət büdcəsinin icrasına dair qanun layihəsi ölkənin strateji sənədlərinə tam uyğundur

İyunun 9-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclasında "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirə olunub. Qanun layihəsi və büdcənin icrasına dair hesabat qanunvericilikdə nəzərdə tutulmuş vaxtda və Hesablama Palatası tərəfindən hazırlanmış müvafiq rəy əsasında Milli Məclisə daxil olub. Hesablama Palatasının rəyinə əsasən, büdcə sənədi mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlanıb, büdcənin icrası büdcə parametrlərinə, ölkənin strateji sənədlərinə uyğunluğu barədə ali audit orqanının mövqeyinə uyğundur. Təqdimatdan da göründüyü kimi, ÜDM-in, o cümlədən neft-qaz və qeyri-neft qaz sahələri üzrə ÜDM-in proqnoz və fakt məbləğləri demək olar ki, üst-üstə düşüb. ÜDM məbləğinin proqnozdan kənarlaşmasına səbəb olan ənənəvi neft qiyməti amili hesabat ili üçün aktual olmayıb, bu göstərici üzrə proqnoz və fakt qiymətləri cüzi fərqlənib.

### Gəlirlər 39,2 milyard manat, xərclər 38,6 milyard manat...

2025-ci ildə həyata keçirilən büdcə siyasətinin əsas istiqamətləri iqtisadi artımın davam etdirilməsi, əhalinin rifahı və sosial tədbirlərin tam maliyyələşdirilməsi, müdafiə qabiliyyətinin və təhlükəsizliyin təminatının gücləndirilməsi, Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, rəqəmsal texnologiyaların, innovativ tətbiqlərin genişləndirilməsi, makroiqtisadi sabitliyin, fiskal intizamın qorunması, büdcə qaydasına əməl edilməsi və digər xərc təminatlarının yaradılması ilə bağlı olub ki, yürüdülən xərc siyasəti həmin prioritetlərin reallaşmasına imkan yaradıb.

2025-ci ilin dövlət büdcəsi layihəsi dövlət maliyyəsinin idarə olunması sahəsində bir sıra fiskal alətlər, həmçinin "Açıq Büdcə Sorğusu"nun metodologiyasına uyğun olaraq, ictimaiyyətə açıqlıq metodologiyası və şəffaflıq prinsiplərinin təmin olunması məqsədi ilə hazırlanıb və icra edilib.

Ötən il icmal büdcənin gəlirləri 48 milyard manat, icmal büdcə xərcləri isə 44,7 milyard manat olub. Dövlət büdcəsi gəlirləri 39,2 milyard manat, xərcləri isə 38,6 milyard manat, büdcə profisiti 580 milyon manat təşkil edib. Ötən il büdcədə qeyri-neft-qaz gəlirlərinin payı 55,2 faizə çatıb ki, bu da 2024-cü illə müqayisədə 2,8 faiz bənd çoxdur. Büdcə gəlirlərinin 18 milyard 773 milyon manatı neft-qaz sektorunun, 19 milyard 543 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşüb, qeyri-neft gəlirləri büdcədə 51 faizə yaxın olmaqla, xüsusi üstünlük təşkil edib. Yeri gəlmişkən, büdcə sənədində neft-qaz amilinin təsirinin azaldılması, xərclərin maliyyələşdirilməsində dayanıqlı mənbələrin payının artırılması qarşıda duran əsas hədəflərdən biri kimi müəyyən edilib və bu prinsipə əməl edilib.



Ötən il tətbiq edilən büdcə qaydası çərçivəsində ortamüddətli dövr ərzində icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin ardıcıl şəkildə azaldılması istiqamətində müvafiq addımlar atılıb. Bu, dövlət büdcəsinin makroiqtisadi, fiskal çərçivələrinin sağlamlaşması baxımından önəmli amildir və ortamüddətli xərclər çərçivəsində 2029-cu ildə həmin göstəricinin minimallaşdırılması hədəf seçilib.

### Müdafiə və təhlükəsizlik sahələrinə 8,1 milyard manat xərclənib

2025-ci ildə dövlət büdcəsinin xərc prioriteti kimi ilk yeri müdafiə və təhlükəsizlik istiqaməti tutur. Bu istiqamətə 2025-ci ildə 8,1 milyard manat və ya dövlət büdcəsi xərclərinin təqribən 21 faizi yönəldilib. 2024-cü illə müqayisədə ötən il bu istiqamətə 1,5 milyard manat daha çox vəsait yönəldilib. Büdcə xərclərində ikinci başlıca istiqamət isə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsidir. Bu xərc siyasətinə əsasən, azad ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 4 milyard manat vəsait nəzərdə tutulub.

Büdcənin icrasının əsas məqamlarından biri cari xərclərin qeyri-neft gəlirləri ilə örtülmə nisbətidir ki, bu rəqəm ötən il daha da artaraq 92 faizə çatıb. 2029-cu ilə hədəf bu rəqəmi 100 faizə çatdırmaqdır. İcmal büdcədə qeyri-neft gəlirlərinin payı 55,2 faizə, icmal büdcənin qeyri-neft gəlirlərinin qeyri-neft ÜDM-ə nisbəti 28,7 faizə çatıb.

Ötən il büdcənin regional təsnifatında da müsbət meyillər qeydə alınıb. Büdcə gəlirlərinin artması yerli gəlirlər hesabına rayon və şəhərlərin büdcə xərclərindən asılılığını azaldıb. Naxçıvana dotasiya proqnoza nisbətdə 55 milyon manat az olaraq 160 milyon manat məbləğində icra olunub. Dotasiyadan asılılıq rayonlarımızda azalıb və cəmi 4 rayona 1,5 milyon manat məbləğində dotasiya verilib.

### Büdcənin 40 faizi sosialyönümlü xərclərə yönəldilib

2025-ci ilin büdcə zərfi Azərbaycan dövlətinin sosial iradəsini əks etdirməklə sosialyönümlü prioritetlərə əsaslanır. Ötən il büdcə xərclərinin 15,3 milyard manatı və ya büdcənin ümumi resurslarının 40 faizi sosialyönümlü xərclərə yönəldilib. 2024-cü illə müqayisə etsək, bu rəqəm 602 milyon manat daha çoxdur. Ümumiyyətlə, son 5 ildə sosialyönümlü xərclər 3,9 milyard manat və ya 34,1 faiz artıb.

2025-ci ildə maliyyə sahəsində həyata keçirilən islahatlara gəlincə, dövlət maliyyəsinin səmərəli idarə edilməsi ilə bağlı tədbirlər, Rəqəmsal Dövlət Maliyyəsi İnformasiya Sisteminin təşkili, dövlət xəzinədarlığının fəaliyyətinin təkmilləşdirilməsi, dövlət müəssisələrinin gəlir və xərc smetalarının təhlili və dividend siyasətinin müəyyən edilməsi, dövlət investisiya və infrastruktur layihələrinin maliyyə ekspertizasının aparılması, müxtəlif büdcə xərclərinə dair normativlərin təkmilləşdirilməsi ilə bağlı görülən əhatəli işlər görülüb. Bununla yanaşı, 2025-ci ildə büdcə vəsaitlərinin uçotunun və xərclərin təyinatı üzrə izlənilməsinin təkmilləşdirilməsi istiqamətində qanunvericilikdə mühüm dəyişikliklər aparılıb. Habelə xalis mənfəətin bölüşdürülməsinə və dividend siyasətinin ümumi parametrlərinə dair qaydalar təsdiq edilib, dövlət investisiya və infrastruktur layihələrinin maliyyə ekspertizasının təhlili prosesinə başlanılıb. Bu amil də büdcə şəffaflığı və fiskal intizamının möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə, büdcənin icrasına dair rəydən və arayışdan da aydın olur ki, 2025-ci ilin büdcə xərcləri səmərəli, ünvanlı və ehtiyaclara uyğun icra edilib. Ötən il ölkəmizin ali maliyyə sənədi nəzərdə tutulan bütün hədəflərin reallaşması ilə yadda qalıb.

*E.CƏFƏRLİ*

# Qurtuluş məfkurəsi: xilaskarlıq missiyasından Zəfər salnaməsinə














İyunun 10-da Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Dövlət Akademik Musiqili Teatrının birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluş məfkurəsi: xilaskarlıq missiyasından Zəfər salnaməsinə" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin hazırladığı videoçarx nümayiş olunub.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi müasir tariximizdə silinməz iz qoymuşdur: "Bilirsiniz ki, ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımız tarixinin son dərəcədə taleyüklü bir dövrünü yaşayırdı. Günü-gündən dərinləşən ictimai-siyasi böhran, sosial-iqtisadi tənəzzül və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü fonunda dövlət müstəqilliyi ciddi təhlükə altında idi. Məhz belə bir mürəkkəb dönəmdə - 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə dövlətçilik tariximizdə yeni mərhələ başlandı. Xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirməklə Azərbaycanın müstəqilliyini möhkəmləndirərək hüquqi, dünyəvi və demokratik dövlət kimi möhkəm təməllər üzərində gələcəyə inamla addımlamasını təmin etdi. Digər tərəfdən, milli maraqlara əsaslanan balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın beynəlxalq münasibətlər sistemində təcrid vəziyyətindən qurtularaq etibarlı tərəfdaşa çevrilməsini şərtləndirdi".

YAP Sədrinin müavini vurğulayıb ki, Ulu Öndərimizin xalqımız qarşısında ən mühüm xidmətlərindən biri də siyasi varisliyin təmin edilməsidir: "Heydər Əliyev yolunu böyük əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət nəticəsində Azərbaycan böyük nailiyyətlərə imza ataraq öz qüdrətini daha da artırdı və xalqımızın uzun illər boyu arzuladığı möhtəşəm Zəfərə - tarixi ədalətin bərpasına nail oldu. Bu gün işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, müasir infrastruktur yaradılır və soydaşlarımızın doğma yurduna qayıdışı təmin olunur ki, bu da Heydər Əliyev ideyalarının təntənəsi və Prezident İlham Əliyevin qətiyyətli siyasətinin real nəticəsidir".

Tahir Budaqovun sözlərinə görə, Heydər Əliyev ideyalarının yaşadılmasında, Qurtuluş məfkurəsinin gənc nəslə aşılanmasında Ulu Öndərimizin qurucusu olduğu və bu gün Prezident İlham Əliyevin liderliyi ilə öz fəaliyyətini inamla davam etdirən Yeni Azərbaycan Partiyasının müstəsna rolu var: "Azərbaycanın aparıcı siyasi qüvvəsi kimi öz sıralarında 750 mindən çox vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyası müdrik dövlət xadiminin əbədiyaşar ideyalarına yüksək sədaqət nümayiş etdirərək ölkəmizin inkişafına mühüm töhfələr verir. Partiyamız dövlət başçısının müəyyənləşdirdiyi strateji hədəfləri bundan sonra da müvəffəqiyyətlə yerinə yetirmək əzmindədir".

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasını dövlət siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyənləşdirərək mədəniyyət və incəsənət sahəsinə daim yüksək diqqət göstərmişdir: "Onun təşəbbüsü ilə mədəniyyətimizin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, yaradıcı insanların əməyi hər zaman yüksək dəyərləndirilmişdir. Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən tarixi irsimizin, o cümlədən mədəniyyətimizin qorunaraq yaşadılmasına xüsusi önəm verilir və bu istiqamətdə ardıcıl işlər görülür. Heç şübhəsiz, zəngin tarixi ənənələrimizin qorunmasında və Qurtuluş məfkurəsinin gənc nəslə çatdırılmasında mədəniyyət xadimlərinin də üzərinə böyük məsuliyyət düşür. Heydər Əliyev irsini yaşatmaq, Prezident İlham Əliyevin qarşımıza qoyduğu bütün vəzifələri yerinə yetirmək və dövlətçiliyimizi daha da möhkəmləndirmək üçün milli maraqları daim qorumalı və dövlətə sədaqətlə xidmət etməliyik. Bu yolda hər birinizə möhkəm cansağlığı, uzun ömür və şərəfli fəaliyyətinizdə davamlı uğurlar arzulayıram".

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov çıxışında bildirib ki, Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin ən şərəfli və əlamətdar səhifələrindən biridir. Onun sözlərinə görə, bu gün dövlətçiliyimizin xilası, xalqımızın parçalanmaq və müstəqilliyini itirmək təhlükəsindən qurtulması, ölkəmizin sabitlik və inkişaf yoluna qədəm qoyması ilə bağlıdır: "1993-cü ildə yaranmış ağır ictimai-siyasi böhran Azərbaycan dövlətinin mövcudluğunu sual altına qoymuşdu. Məhz belə bir mürəkkəb və taleyüklü məqamda xalqın tələbi ilə Ümummilli Lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı. Azərbaycan xalqı öz xilaskarına üz tutaraq ölkənin gələcəyini onun müdrik siyasi təcrübəsinə etibar etdi. Əgər Heydər Əliyevin siyasi qətiyyəti, dövlətçilik təfəkkürü və xalqına sonsuz sədaqəti olmasaydı, müstəqil Azərbaycan dövlətinin gələcək taleyi ciddi təhlükə altında qala bilərdi. Buna görə də Milli Qurtuluş Günü yalnız tarixi hadisə deyil, həm də Azərbaycan dövlətçiliyinin xilası və xalqımızın gələcəyə inamının təntənəsidir".

V.Zeynalov qeyd edib ki, Ulu Öndərin əsasını qoyduğu siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərtərəfli inkişaf edir, beynəlxalq nüfuzu artır, iqtisadi qüdrəti güclənir və milli maraqlarımız qətiyyətlə müdafiə olunur. Xüsusilə qeyd etmək lazımdır ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanaraq torpaqlarımızı işğaldan azad etdi. Bu şanlı qələbə Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsi, Azərbaycan xalqının milli birliyinin və dövlətimizin gücünün bariz nümunəsi oldu. 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazilərində dövlət suverenliyi tam təmin edildi. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü və suveren hüquqlarını tam bərpa etdi. Bu tarixi nailiyyətlər Prezident İlham Əliyevin qətiyyətli siyasətinin və xalq-iqtidar birliyinin nəticəsidir".

Natiq vurğulayıb ki, bu gün Azərbaycan regionun lider dövləti kimi mühüm beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Ölkəmiz siyasi sabitliyi, iqtisadi inkişafı, sosial rifahı və milli həmrəyliyi ilə seçilir. Bütün bunların əsasında isə 15 İyun - Milli Qurtuluş Günündə əsası qoyulmuş möhkəm dövlətçilik təməlləri dayanır. "Milli Qurtuluş Günü hər birimiz üçün Vətənə sədaqət, dövlətçiliyə bağlılıq və milli birlik rəmzidir. Bu əlamətdar gün bizə bir daha xatırladır ki, müstəqilliyin qorunması və dövlətçiliyimizin daha da gücləndirilməsi hər bir vətəndaşın müqəddəs borcudur",- deyə V.Zeynalov əlavə edib.

Çıxış edən Azərbaycan Dövlət Akademik Musiqili Teatrın rəhbəri Aqil Bəhramlı bildirib ki, tariximizdə elə məqamlar var ki, onlar yalnız bir günün və ya bir hadisənin deyil, bütöv bir xalqın taleyinin dəyişdiyi dönüş nöqtələri kimi yadda qalır: "Milli Qurtuluş Günü də məhz belə tarixlərdəndir. Bu gün müstəqil Azərbaycanın qorunub saxlanılması, dövlətçiliyimizin möhkəmləndirilməsi və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi ilə sıx bağlıdır. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkədə sabitliyin bərpasına, dövlət institutlarının möhkəmləndirilməsinə və milli həmrəyliyin təmin edilməsinə şərait yaratdı. Azərbaycanın müstəqilliyinin qorunması və dövlətçiliyimizin gələcək inkişafı üçün möhkəm təməllər məhz həmin dövrdə formalaşdırıldı".

"Ulu Öndərin tarixi qayıdışından sonra ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı. Dövlət idarəetmə sistemi təkmilləşdirildi, demokratik təsisatların inkişafı üçün şərait yaradıldı. 1995-ci ildə qəbul edilən Konstitusiya isə müasir Azərbaycan dövlətinin hüquqi əsaslarını müəyyənləşdirərək gələcək inkişafın yol xəritəsinə çevrildi. Eyni zamanda, ölkədə ictimai-siyasi sabitlik təmin edildi, daxili qarşıdurmaların qarşısı alındı və müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Bütün bunlar Azərbaycanın gələcək uğurlarının əsasını təşkil etdi", - deyə A.Bəhramlı əlavə edib.

Natiq qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mühüm nailiyyətlər əldə edib: "Xüsusilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması xalqımızın çoxəsrlik dövlətçilik tarixində ən şərəfli səhifələrdən biridir. Milli Qurtuluş Gününün əhəmiyyəti həm də ondan ibarətdir ki, bu tarix gənc nəslə dövlət müstəqilliyinin necə böyük dəyər olduğunu xatırladır. Gənclərimiz xalqımızın keçdiyi mürəkkəb və şərəfli yolu öyrənərək dövlətçilik ənənələrinə sadiqlik, vətənpərvərlik və milli birlik kimi dəyərləri daha dərindən mənimsəyirlər".

YAP Veteranlar Şurasının üzvü, Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında bildirib ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 İyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik olan bir gündür: "Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxadayaq olan Heydər Əliyevdir. 1993-cü il iyunun 15-də siyasi rəhbərliyə qayıdan Ulu Öndərin gərgin əməyi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində qısa zaman kəsiyində dövlət müstəqilliyimiz dönməz xarakter aldı, hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyuldu, siyasi sabitlik, bunun ardınca isə makroiqtisadi sabitlik bərqərar olundu".

V.Novruzov qeyd edib ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın yeni neft strategiyası formalaşdırılıb və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə xarici investisiyaların ölkəmizə axını üçün möhkəm zəmin yaradılıb. V.Novruzovun sözlərinə görə, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir.

YAP Veteranlar Şurasının üzvü Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Novruz Quliyev də çıxışında Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, Heydər Əliyev SSRİ dövründə həm Azərbaycana rəhbərlik edərkən, həm də Moskvada yüksək vəzifədə çalışarkən daim xalqımızın rifahı, respublikamızın inkişafı üçün böyük işlər görüb.

N.Quliyev Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi ilə xalqımızı bir çox bəlalardan qurtarmaqla bərabər, Azərbaycanın dövlətçilik tarixində yeni səhifə açdığını bildirib. O deyib ki, bu qayıdış ölkədə sabitliyin bərqərar olması və iqtisadi-siyasi inkişafın təmin edilməsi baxımından əhəmiyyətli dönüş nöqtəsi kimi yadda qalıb: "Heydər Əliyevin liderliyi ilə Azərbaycan müstəqilliyini möhkəmləndirib, dövlət institutlarını gücləndirib və beynəlxalq aləmdə nüfuzunu artırıb".

Natiq diqqətə çatdırıb ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan həm daxili, həm də xarici siyasətdə mühüm nailiyyətlər əldə edib. Onun sözlərinə görə, Ulu Öndərin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı zirvələrə yüksəldib.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təqdim olunub.













# Siyasi partiyalar cəmiyyətdə həmrəylik mühitinin qorunması prosesində fəal iştirak edir

## Prezident Administrasiyasında Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev ilə görüş keçirilib



İyulun 10-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev ilə görüşüb.

Partiyanın Mətbuat xidmətindən verilən məlumata görə, açıq fikir mübadiləsi şəraitində keçirilmiş görüş zamanı dünya və regionda cərəyan edən proseslər, həmçinin siyasi sabitliyi təmin edən amillər və siyasi partiyaların fəaliyyəti ətrafında söhbət aparılıb. Siyasi sabitliyin təməlində dayanan həmrəylik mühitinin təmin olunmasında sağlam iqtidar-müxalifət dialoqunun müstəsna əhəmiyyəti xüsusilə vurğulanıb. Bildirilib ki, siyasi münasibətlər müstəvisində əməkdaşlıq təcrübəsinin şaxələnməsi qaçılmaz olaraq dövlətin demokratik ənənələrini inkişaf etdirir. Siyasi partiyaların legitim və şəffaf fəaliyyəti üçün yaradılmış imkanlar ölkənin siyasi həyatını zənginləşdirir və cəmiyyətin intellektual potensialının milli maraqların qorunması uğrunda səfərbər olunmasına xidmət edir.

Görüşdə həmçinin informasiya məkanında yaradılmış fəaliyyət sərbəstliyi nəticəsində siyasi partiyaların artan ictimai nüfuzu, partiya üzvlərinin müxtəlif dövlət qurumlarında çalışması və ölkənin ictimai həyatında yaxından iştirak etməsi ilə bağlı olan məsələlər də müzakirə olunub. Vurğulanıb ki, bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə son illər ərzində həyata keçirilən tədbirlər sayəsində siyasi partiyaların işlək demokratik institut kimi inkişaf etməsi üçün zəruri şərait yaradılıb. İctimai rəyi əks etdirən siyasi partiyalar cəmiyyətdə həmrəylik mühitinin qorunması prosesində də fəal şəkildə iştirak edir.

Milli birlik və siyasi sabitliyin qorunmasına xidmət edən həmrəylik mühitinin inkişafı naminə iqtidar ilə hər zaman sağlam əməkdaşlığa hazır olduğunu bildirən Partiya sədri dialoq dəyərlərinə bundan sonra da sadiq qalacağını vurğulayıb.

Prezident Administrasiyasının rəsmisi görüşün sonunda milli maraqların qorunması uğrunda aparılan fəaliyyətdə Klassik Xalq Cəbhəsi Partiyasına müvəffəqiyyətlər arzulayıb.

# Azərbaycan - Yaponiya: İkitərəfli münasibətlərin aktual gündəliyi

Müstəqil Azərbaycanın milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursunun əhatə dairəsi genişlənir. O cümlədən respublikamız müxtəlif istiqamətlərdə münasibətlər qurduğu dövlətlərlə əlaqələrini daha da möhkəmləndirməyə xüsusi önəm verir.

Bu kontekstdə Azərbaycanla "gündoğar ölkə" sayılan Yaponiya arasında hər iki tərəfin güclü siyasi iradəsinə və qarşılıqlı maraqlara əsaslanan diplomatik və iqtisadi əlaqələrin genişlənməsi məmnunluq doğurur. Bu günlərdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Yaponiyaya rəsmi səfərə gedib. Bunun respublikamızın xarici siyasət qurumunun rəhbərinin son 17 ildə "gündoğar ölkə"yə baş tutan ilk səfəri olduğunu nəzərə alsaq, deyə bilərik ki, bu səfərdən gözləntilər çoxdur.



## Uzun illəri əhatə edən sıx əməkdaşlıq

Yaponiyanın xarici işlər naziri Toşimitsu Moteqi keçirdiyi mətbuat konfransında azərbaycanlı həmkarı Ceyhun Bayramovun səfəri ilə bağlı bir sıra məqamlara diqqət çəkib. Yaponiyalı nazir ikitərəfli münasibətlərin aktual gündəliyi olduğunu vurğulayıb. Mətbuat konfransında Toşimitsu Moteqi Azərbaycandan olan həmkarı ilə ikitərəfli əməkdaşlıq, xüsusilə enerji məsələləri ilə yanaşı, həm də regional gündəlik - Yaxın Şərq, Cənubi Qafqaz və Hind-Sakit okeanı regionundakı vəziyyətlə bağlı ətraflı fikir mübadiləsi aparılmasına ehtiyac olduğuna vurğu edib.

Yaponiya XİN rəhbərinin ikitərəfli gündəlikdə bir sıra aktual məsələlərin olduğuna diqqət çəkməsi təsadüfi deyil. Bu gün Azərbaycanla Yaponiya arasında məmnunluq doğuran ikitərəfli münasibətlər ilk növbədə siyasi dialoqun yüksək səviyyədə olmasından qaynaqlanır. Yaponiya Azərbaycanın müstəqilliyini 28 dekabr 1991-ci ildə tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 7 sentyabr 1992-ci il tarixində qurulub. Azərbaycan Respublikasının Yaponiyadakı Səfirliyi 12 oktyabr 2005-ci ildə, Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi isə 28 yanvar 2000-ci ildə fəaliyyətə başlayıb. Ulu Öndər Heydər Əliyev 24-28 fevral 1998-ci il, Prezident İlham Əliyev isə 7-10 mart 2006-cı il tarixlərində Yaponiyada rəsmi səfərdə olublar.

Eyni zamanda, hər iki ölkənin parlamentlərində Azərbaycan-Yaponiya Parlamentlərarası Dostluq Qrupu və Yaponiya-Azərbaycan Parlamentlərarası Dostluq Liqası fəaliyyət göstərir. Həmçinin Azərbaycan və Yaponiyanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr müntəzəm qaydada davam etdirilir. Bu məqsədlə keçirilən iclaslar zamanı iki ölkə arasında münasibətlərin hazırkı durumu, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və iqtisadi perspektivləri ətrafında müzakirələr aparılır.

Siyasi dialoqun yüksək səviyyəsinə uyğun olaraq iqtisadi sahədə də əməkdaşlıq uğurla inkişaf edir. İki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət komissiyaları fəaliyyət göstərir. Prezident İlham Əliyevin 9 aprel 2025-ci il tarixində imzaladığı sərəncamla Azərbaycan tərəfdən Dövlət Komissiyasının Dövlət Neft Şirkətinin (SOCAR-ın) prezidentinin sədrliyi ilə yeni tərkibi təsdiqlənib.

Ümumilikdə, Yaponiya tərəfi Azərbaycan iqtisadiyyatına 7 milyard dollara yaxın investisiya yatırıb ki, bunun da 100 milyon dollardan çoxu qeyri-neft sektoruna yönəldilib. O cümlədən Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı Azərbaycanda yeni infrastuktur sahələrinin yaradılması, neft-qaz sənayesinin inkişafı üzrə layihələrin həyata keçirilməsi məqsədilə 1996-cı ildən etibarən bu işlərə uzunmüddətli kreditlər ayırıb.

Respublikamızda fəaliyyət göstərən və əsasən kənd təsərrüfatı sahələrindəki layihələri maliyyələşdirən digər bir yapon şirkəti "Tet International Development" MMC indiyədək Azərbaycanda tütünçülüyün inkişafına 30 milyon dollardan çox sərmayə qoyub. Bu şirkətin ölkəmizdə 4 zavodu fəaliyyət göstərir ki, onlarda da 2200-ə yaxın işçi çalışır. Təqdirəlayiq haldır ki, bu şirkət hər il öz qazancının bir faizini ölkəmizdə xeyriyyəçilik məqsədlərinə sərf edir.

Həmçinin Bakıda Dövlət Toxum Fondu ilə Yaponiyanın "Dentsu Group" və "Kaneko seeds" şirkətləri arasında təcrübə mübadiləsi və əməkdaşlıq məsələləri müzakirə olunub. "Dentsu Group" Yaponiyanın ən böyük investisiya, "Kaneko seeds" isə yüksək keyfiyyətli tərəvəz, çiçək və yem bitkiləri, istixana materialları, kənd təsərrüfatı məhsulları, effektiv və səmərəli becərmə texnologiyaları, yüksək texnoloji kənd təsərrüfatı avadanlıqları təqdim edən şirkətlərdən sayılır.

Turizm sahəsində əlaqələrin inkişaf etdirilməsi və əməkdaşlıq imkanları 2024-cü il aprelin 19-da Azərbaycan Dövlət Turizm Agentliyi və Yaponiyanın Azərbaycandakı səfirliyi arasında keçirilən görüşdə müzakirə olunub. Müzakirələr zamanı qarşılıqlı turist səfərlərinin təşviq edilməsi istiqamətində birgə layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

İki ölkə arasında mədəni-humanitar sahədə də əməkdaşlıq genişlənir. Hazırda Yaponiyanın humanitar təşkilatları ölkəmizdə təhsil, incəsənət, səhiyyə, kənd təsərrüfatı və digər sosial sahələrdə müxtəlif layihələr həyata keçirirlər. 2024-cü ilin iyun ayında Tokio şəhərində Yaponiyada yaşayan azərbaycanlı və yapon incəsənət ustalarının iştirakı ilə birgə konsert baş tutub.

Həmçinin təhsil sahəsində əlaqələrdə müsbət təcrübələr əldə olunub. Azərbaycan vətəndaşı olan tələbələrə Yaponiyada tədqiqatçı, magistr, doktor pillələri üzrə tam ödənişsiz təhsil almaq imkanı verən MEXT (Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyi) təqaüd proqramını həyata keçirir.

İkitərəfli münasibətlərdə hər iki ölkənin müxtəlif şəhərləri və regionları arasında birbaşa əlaqələr də xüsusi yer tutur. Qardaşlaşmış şəhərlər təcrübəsi də öz müsbət bəhrəsini verir. Azərbaycanın İsmayıllı rayonu ilə Yaponiyanın İto şəhəri, Bakı şəhərinin Xətai rayonu ilə Yaponiyanın Şika şəhəri arasında qurulmuş münasibətlər, həmçinin Ağdam və Hirosima, Qarabağın mədəniyyət beşiyi olan Şuşa ilə Okayama şəhərləri arasında əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində davam edən fəaliyyət buna misaldır. Hirosimadan gələn nümayəndə heyətini Ağdam şəhərinin xarabalıqları dəhşətə salıb. Yeri gəlmişkən, Yaponiya işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərinə dəstək verən dost ölkələr sırasında yer alır. Yaponiyanın Azərbaycanda fəaliyyət göstərən "TET International Development Co. Ltd." şirkəti Qarabağda yenidənqurma işlərinə sərmayə qoyuluşu ilə bağlı Tokioda təqdimat keçirib.



## Səmərəli enerji dialoqu genişlənir

Azərbaycanla Yaponiya arasında uzun illəri əhatə edən sıx enerji əməkdaşlığı formalaşıb. "Xəzər dənizi sahilində yerləşən və dünyanın aparıcı neft və təbii qaz istehsalçılarından biri olan Azərbaycan hazırda neft yataqlarının işlənməsində Yaponiya şirkətləri ilə əməkdaşlıq edir və cari vəziyyəti nəzərə alaraq Yaponiyaya xam neft ixrac edir. Bundan başqa, Azərbaycan tərəfi Yaxın Şərqdə son gərginlik kontekstində Yaponiya vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsinə mühüm dəstək göstərir, bura İrandan təxliyə edilmiş Yaponiya vətəndaşlarının qəbulu da daxildir", - deyə Yaponiya XİN-in rəhbəri vurğulayıb.

Yaponiyanın məşhur "ITOCHU" şirkətinin ölkəmizin enerji sektorunda uğurlu fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Qeyd edək ki, Yaponiyanın ən böyük universal transmilli şirkətlərindən biri olan "ITOCHU" 1866-cı ildə yaradılıb. Baş ofisi Tokioda yerləşən və illik dövriyyəsi 160 milyard ABŞ dolları təşkil edən korporasiyada 8 mindən çox işçi çalışır. 816 yardımçı müəssisəsi olan qurumun 164 ölkədə nümayəndəliyi var. 1996-cı ildə Bakıda ofisini açan "ITOCHU" Azərbaycanda, əsasən, neft və qaz sahəsində investisiya layihələrini həyata keçirir. Korporasiya "Əsrin müqaviləsi" çərçivəsində "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsi, eləcə də Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihələrində iştirak payları qazanıb. Bununla yanaşı, yapon nəhəngi Türkiyənin "Petkim" neft-kimya kompleksinin nəzdində layihə gücü ildə 10 milyon ton təşkil edən STAR neft emalı zavodunun inşasında SOCAR-la əməkdaşlıq edib.

Azərbaycandan Yaponiyaya neft ixracına başlanılması da təqdirəlayiq haldır. Son vaxtlarda Yaxın Şərqdəki eskalasiya və Hörmüz boğazının bloklanması fonunda Yaponiyanın ENEOS şirkəti Azərbaycandan 283 min barel neft alıb. Mayın 12-də Azərbaycandan neftdaşıyan tanker Yaponiyaya çatıb. Neft Negisidə (Tokio yaxınlığında) yerləşən ENEOS neft emalı zavoduna yönəldirilib.

Yerli mətbuat yazır ki, Yaponiya hökuməti ABŞ və Rusiyadan idxal da daxil olmaqla, Hörmüz boğazından keçməyən alternativ neft tədarükü mənbələrinin təmin edilməsi istiqamətində səylərini fəallaşdırıb, çünki satınalma mənbələrinin şaxələndirilməsi getdikcə daha mühüm prioritetə çevrilir. Hörmüz boğazının bağlanmasına qədər Yaponiya neft emalı zavodları üçün əsas xammal Yaxın Şərq nefti olmuşdur. Xatırladaq ki, Yaponiyada neftin gündəlik istehlak həcmi təxminən 3 milyon barel təşkil edir. Yaponiyada Yaxın Şərqdə tədarükdə uzunmüddətli fasilələr olacağı təqdirdə idxalın sabitliyi ilə bağlı narahatlıqlar qalmaqdadır . Hökumət bu narahatlıqları dost Azərbaycanla əməkdaşlıq çərçivəsində aradan qaldırmaq niyyətindədir.

Bərpaolunan enerji sahəsi üzrə təməli qoyulan əməkdaşlığın iki ölkə arasında enerji əməkdaşlığının yeni və çox perspektivli istiqamətidir. Azərbaycanın Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və Yaponiyanın "Komaihaltec" şirkəti arasında imzalanmış anlaşma memorandumu ölkəmizin dağlıq kəndlərində bərpaolunan enerji mənbələri ilə hibrid elektrik enerjisinin istehsalını nəzərdə tutur. Bundan başqa, Yaponiyanın dövlət qurumları və maliyyə təşkilatları Qarabağ və Şərqi Zəngəzurda yaradılması nəzərdə tutulan "yaşıl enerji" infrastrukturunun bərpası layihələrinə böyük maraq göstərirlər. Vurğulamaq yerinə düşər ki, Yaponiya şirkətlərindən biri azad ərazilərin "yaşıl enerji" zonasının baş planını hazırlayıb.

***Mübariz ABDULLAYEV***

# Türk dövlətlərinin bank-maliyyə hədəfləri

Bakıda Türkdilli Dövlətlərin Bank Assosiasiyaları Şurası, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Qazaxıstan Maliyyəçilər Assosiasiyası və digər bank qurumlarının dəstəyi ilə "Beynəlxalq Maliyyə və Bankçılıq Sammiti 2026: Türk Dövlətlərinin Qlobal Maliyyə İnteqrasiyası" sammiti işinə başlayıb. Bank-maliyyə sektorunun rəhbər şəxslərini, tənzimləyici orqanları, maliyyə sektoru üçün həll və texnologiya təminatçılarını, startapları, beynəlxalq ekspertləri, investorları və beynəlxalq maliyyə institutlarını bir araya gətirən ikigünlük sammit çərçivəsində 2026-cı il üzrə qlobal bankçılıq və maliyyə sektorunda əsas trendlər müzakirə olunur.

Tədbir çərçivəsində iştirakçılar regional inteqrasiya və beynəlxalq əməkdaşlıq; bankçılıqda rəqəmsal transformasiya, ödəniş və hesablaşma sistemləri; açıq bankçılıq və API ekosistemləri, süni intellektlə idarə olunan maliyyə və avtomatlaşdırma, kibertəhlükəsizlik və fırıldaqçılığın qarşısının alınması, alternativ bankçılıq, dayanıqlı və yaşıl maliyyə təchizatı, investisiya imkanlarınnı artırılması, insan kapitalı, bacarıqlar və maliyyə savadlılığı mövzularında fikir mübadiləsi aparılıb.




## Bakıda keçirilən "Beynəlxalq Maliyyə və Bankçılıq Sammiti 2026: Türk Dövlətlərinin Qlobal Maliyyə İnteqrasiyası" sammitində ortaq maliyyə baxışı nümayiş etdirilib

**Bank sistemində rəqəmsallaşma genişlənir**

Azərbaycan Mərkəzi Bankının sədr müavini Vüsal Xəlilov Bakı sammitinin regional xarakterli tədbir kimi əhəmiyyətinə toxunaraq müzakirə olunacaq prioritet istiqamətlərin hər birinin Türk dövlətlərinin maliyyə sektorunda əməkdaşlığın gücləndirilməsinə təkan verəcəyinə əminliyini ifadə edib. Vurğulayıb ki, birgə tərəfdaşlıqda Mərkəzi bankların rolu böyükdür, bank sistemində şəffaflıq və effektiv kommunikasiya isə daha sıx inteqrasiyanı təmin edir. Bank sistemində rəqəmsallaşmanın genişlənməsinə diqqət çəkən V.Xəlilov müştərilərin ödəniş seqmentlərindən geniş istifadəsinin artmasını müsbət amillərdən biri kimi dəyərləndirib. Belə ki, təkcə cari ilin may ayında Milli Ödənişlər Sistemi arxitekturasında mühüm yer tutan Ani Ödənişlər Sisteminin payı 54 faizə çatıb. Hazırda Ani Ödənişlər Sisteminin inkişafı istiqamətində mühüm işlər görülür və sistemin əhatə dairəsi davamlı olaraq genişləndirilir. Bu isə qarşıdakı dövrdə bu göstəricinin daha da artmasına imkan verəcək. Digər ödəmə üsulu olan "Az-QR"in də hazırda bazarda payında dinamika müşahidə edilir, ən aşağı xərcli ödəniş vasitələrindən biri olan bu seqment xüsusilə də təsərrüfat subyektlərinin əməliyyat xərclərinin azalmasına imkan yaradır. Həyata keçirilən bütün tədbirlər məhz xərc çağırışlarının aradan qaldırılmasına xidmət edir. Dünyada rəqəmsallaşma səviyyəsi artdıqca bu istiqamətdə təşəbbüslərin sayı da çoxalır.

**Azərbaycanın regional rəqəmsal haba çevrilməsi nəzərdə tutulur**

Bank sektorunda müasir İKT alətlərinin tətbiqindən bəhs edən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri Fərid Osmanov bildirib ki, həmin hədəflər 2026-2030-cu illəri əhatə edən Rəqəmsal İnkişafın Sürətləndirilməsi üzrə Fəaliyyət Planında da öz əksini tapıb. Strategiya çərçivəsində ölkənin İKT sektorunun həcminin hazırkı 2,5 milyard dollardan iki dəfə artırılması və Azərbaycanın regional rəqəmsal haba çevrilməsi nəzərdə tutulur. Proqramın əsas istiqamətləri rəqəmsallaşmanın sürətləndirilməsi, süni intellekt, innovasiyalar və kibertəhlükəsizlik sahələrinin inkişafıdır. Bu prosesdə "mygov" platforması əsas rəqəmsal infrastruktur rolunu oynayacaq. Hazırda bu platforma ən aktiv inteqrasiyanı təmin edir və son bir ildə "mygov" platformasının istifadəçi bazası təxminən üç dəfə artaraq 1,7 milyonu keçib, təqdim olunan xidmətlərin sayı 11 dəfə artıb. Müəyyən edilmiş hədəfə uyğun olaraq yaxın vaxtlarda beynəlxalq maliyyə institutları ilə geniş əməkdaşlıq paketinin tamamlanması, startapların, vençur fondlarının və texnoparkların inkişafını dəstəkləyən yeni mexanizmlərin tətbiqi planlaşdırılır.

**Türk dövlətlərində rəqəmsal ödəniş inteqrasiyası üçün imkanlar genişdir**

Azərbaycan Banklar Assosiasiyasının sədri Zakir Nuriyev bildirib ki, rəqəmsal transformasiyanın sürətlənməsi və ödəniş ekosistemində müşahidə edilən inkişaf tendensiyaları Türk dövlətlərinin maliyyə bazarları arasında qarşılıqlı inteqrasiya üçün əlverişli imkanlar yaradır. Qabaqcıl regionların təcrübəsi göstərir ki, rəqəmsal ödəniş sistemləri artıq uzun müddətdir şaxələnmiş inteqrasiya modelləri əsasında fəaliyyət göstərir. Bu baxımdan, Avropa İttifaqında SEPA və TARGET2 kimi ödəniş sistemləri, eləcə də ASEAN ölkələri - Tailand, Sinqapur, Malayziya, İndoneziya və Kamboca arasında rəqəmsal ödəniş ekosisteminin formalaşdırılması istiqamətində həyata keçirilən təşəbbüslər xüsusi diqqət çəkir.

ABA sədrinin sözlərinə görə, Türk dövlətlərində rəqəmsal ekosistemin formalaşdırılması istiqamətində atılan uğurlu addımlar, o cümlədən ödəniş xidmətləri və ödəniş sistemləri üzrə tənzimləmə və nəzarət çərçivəsinin təkmilləşdirilməsi, rəqəmsal banklar haqqında qanunvericiliyin qəbul edilməsi, kriptovalyuta sahəsində hüquqi bazanın formalaşdırılması, ani ödəniş sistemlərinin tətbiqi və innovativ həllərin genişləndirilməsi - qarşılıqlı inteqrasiya əlaqələrinin daha da dərinləşməsi üçün mühüm zəmin yaradır. Bütün bunlarla bərabər, maliyyə bazarları sahəsində Türk dövlətləri arasında qarşılıqlı inteqrasiyanın gücləndirilməsi məqsədilə oxşar infrastruktur komponentləri, o cümlədən Ani Ödəniş Sistemləri üzrə vahid yanaşmaların tətbiqi vacibdir. Eyni zamanda, innovativ həllərin və texnologiyaların maliyyə bazarlarına daha çevik və effektiv şəkildə inteqrasiyası üçün tənzimləyici "sandbox" rejimində iştirak edən təşkilatların qarşılıqlı tanınması təcrübəsinin tətbiqi məqsədəuyğundur. Regional səviyyədə infrastruktur komponentləri üzrə qarşılıqlı uyğunlaşmanın təmin edilməsi məqsədilə Mərkəzi bankların, eləcə də sahə üzrə aparıcı ekspertlərin iştirakı ilə birgə işçi qrupların yaradılması vacibdir.

**TDT-nin bank aktivləri 1,2 trilyon dollara yaxınlaşıb**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin bank aktivləri 1,2 trilyon dollara yaxınlaşıb. Hazırda TDT ölkələrinin ümumi daxili məhsulu 2,1 trilyon dolları ötür ki, bu da dünya iqtisadiyyatının təxminən 3 faizini təşkil edir. Ötən il TDT-yə üzv ölkələr üzrə orta iqtisadi artım tempi 6 faizdən yüksək olub. Ən yüksək artım Qırğızıstanda qeydə alınıb və bu göstərici 11 faizi ötüb. Özbəkistanda iqtisadi artım 7 faizdən, Qazaxıstanda isə 5 faizdən çox olub. TDT ölkələrinin bank aktivləri dünya bank aktivlərinin cəmi 0,8 faizini təşkil edir.

Ötən il TDT ölkələri üzrə ümumi yığımın həcmi 670 milyard dollara çatıb. Bu göstərici dünya üzrə ümumi yığımın 2,3 faizinə bərabərdir. Yığım həcmi ilə bank aktivləri arasındakı fərq maliyyə resurslarının bank sektoruna cəlb olunması və maliyyə vasitəçiliyinin dərinləşdirilməsi üçün əlavə imkanların mövcudluğunu göstərir. Bu baxımdan, Türk Dövlətləri Təşkilatında maliyyə bazarlarının inkişafı və bank sektorunun genişlənməsi üçün əhəmiyyətli potensial formalaşıb. Özbəkistanın bank aktivləri 28,5 milyard dollar məbləğində qiymətləndirilir. TDT-də bundan sonrakı bank sektorunun inkişafı ilə bağlı requlyativ tənzimləmə və hüquqi məsələlər öz həllini tapmalıdır. Digər məsələlər - texnologiyalar, insan kapitalının inkişafı, bank-maliyyə mədəniyyətinin inkişafı ilə bağlıdır.

**Kibertəhlükəsizlik sahəsində əməkdaşlıq güclənir**

Türk dövlətləri arasında rəqəmsal bankçılıq və kibertəhlükəsizlik sahəsində əməkdaşlığın gücləndiyini bildirən Türkiyə Banklar Birliyinin Baş katibi Nurullah Bakırın sözlərinə görə, Türk dövlətləri sahib olduğu güclü texniki bilik bazası, yüksək səviyyədə yetişmiş insan resursları və inkişaf etmiş maliyyə infrastrukturu ödəniş sistemləri sahəsində daha sıx əməkdaşlıqların qurulması üçün mühüm imkanlar yaradır. Bu istiqamətdə atılacaq birgə addımlar yalnız maliyyə inteqrasiyasını deyil, həm də regionun texnoloji səriştəsini və qlobal rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır. Bu baxımdan yeni bank çağırışları kibertəhlükəsizlik risklərini də əhəmiyyətli dərəcədə artırır. Bu səbəbdən bankların kibertəhdidlərə qarşı güclü və sistemli tədbirlər görməsi xüsusi önəm daşıyır. Regional səviyyədə kibertəhlükəsizlik əməkdaşlığının gücləndirilməsi, təhdid kəşfiyyatının paylaşılması və ortaq müdafiə mexanizmlərinin yaradılması bank sektorunun dayanıqlılığına ciddi töhfə verə bilər. Eyni zamanda, tənzimləyici uyğunluq və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində standartların yaxınlaşdırılması da regional inteqrasiyanın əsas istiqamətlərindən biridir.

Digər çıxış edən bank icmasının nümayəndələri vurğulayıb ki, sammit regional və türkdilli dövlətlərin maliyyə sistemlərinin qlobal maliyyə məkanına inteqrasiyasını sürətləndirmək məqsədilə yüksəksəviyyəli platformaya çevriləcək.

Qeyd edək ki, "Beynəlxalq Maliyyə və Bankçılıq Sammiti 2026: Türk Dövlətlərinin Qlobal Maliyyə İnteqrasiyası" tədbiri çərçivəsində Azərbaycan Banklar Assosiasiyası (ABA) və "Ticarət Şəbəkələrinin İnkişafı" İctimai Birliyi arasında anlaşma memorandumu imzalanıb.

Ümumilikdə, Bakı sammiti Türk dövlətlərinin bank və maliyyə institutlarının hədəflərini reallaşdırmaq, regional əməkdaşlığı və ödəniş sistemlərinin inteqrasiyasını möhkəmləndirmək, ortaq maliyyə baxışını formalaşdırılmaq baxımından faydalı stimullar verəcək.

***E.CƏFƏRLİ***

## Süni intellekt 2030-cu ildə təqribən trilyon kilovat-saat elektrik enerjisi istehlak edə bilər

Süni intellekt (AI) texnologiyalarının sürətli inkişafı təbii sərvətlərin istehlakının artması ilə müşayiət olunur. Yeni beynəlxalq hesabata görə, 2030-cu ilə qədər AI infrastrukturunun əsasını təşkil edən qlobal data mərkəzləri ildə 945 teravatt-saata qədər elektrik enerjisi istehlak edə bilər.

AZƏRTAC BMT-nin məlumatlarına istinadla xəbər verir ki, bu rəqəm 650 milyondan çox insanın yaşadığı Pakistan, Banqladeş və Nigeriyanın ümumi illik enerji istehlakından təxminən üç dəfə çoxdur.

Tədqiqatın müəllifləri qeyd edirlər ki, süni intellektin ətraf mühitə təsiri elektrik enerjisi istehlakından kənara çıxır. Data mərkəzləri, həmçinin serverləri soyutmaq və enerji istehsal etmək üçün xeyli miqdarda su tələb edir. Mütəxəssislər hesablayırlar ki, onilliyin sonuna qədər AI-nin su izi 1,3 milyard insanın illik ev təsərrüfatlarının su istehlakı ilə müqayisə edilə bilən səviyyələrə çata bilər.

Bundan əlavə, enerji istehsalı və süni intellekt infrastrukturu təchizat zəncirləri üçün istifadə olunan torpaq sahəsi 14.500 kvadrat kilometri keçə bilər. Bu, Cakarta metropoliten ərazisinin təxminən ikiqat böyüklüyüdür.

Hesabatda vurğulanır ki, əsas resurs yükü genişmiqyaslı süni intellekt modellərinin hazırlanması ilə deyil, onların gündəlik istifadəsi ilə bağlıdır. Tədqiqatçılar süni intellekt xidmətlərinin fəaliyyətinin ümumi resurs istehlakının 80-90 faizinə bərabər olduğunu təxmin edirlər.

Ekspertlər müxtəlif tapşırıqlar ara-



sında resurs istehlakındakı əhəmiyyətli fərqləri qeyd edirlər. Məsələn, tək bir şəkil yaratmaq standart mətn sorğusundan təxminən min dəfə çox enerji tələb edir, videoməzmun yaratmaq isə daha yüksək hesablama xərcləri ilə əlaqələndirilir.

Tədqiqatın müəllifləri, həmçinin texnoloji səmərəliliyin artırılmasının mütləq resurs istehlakının azalmasına səbəb olmadığını bildirən "Cevons effekti" barədə xəbərdarlıq edirlər. Əksinə, daha əlçatan və güclü sistemlər tez-tez tələbi artırır və ümumi ətraf mühit yükünü çoxaldır.

Süni intellekt infrastrukturunun qeyri-bərabər paylanması xüsusilə narahatlıq doğurur. Xüsusi hesablama gücünün 90 faizindən çoxu hazırda ABŞ və Çində cəmləşib, 150-dən çox ölkədə isə əhəmiyyətli daxili hesablama gücü yoxdur. Bundan əlavə, bəzi bölgələrdə data mərkəzləri artıq enerji sistemlərinə və su ehtiyatlarına əlavə təzyiq göstərir.

Proqnozlara görə, 2030-cu ilə qədər süni intellekt infrastrukturu ildə 2,5 milyon tona qədər elektron tullantı istehsal edəcək ki, bu da təkrar emal və utilizasiya sistemləri üçün əlavə çətinliklər yaradacaq.

Lakin hesabat müəllifləri süni intellektin daha da inkişaf etdirilməsinə ehtiyac olduğunu şübhə altına almırlar. Onlar resurs istehlakı məlumatlarının şəffaflığının artırılması, enerjiyə qənaət edən həllərin tətbiqi və süni intellekt infrastrukturunun milli enerji, su və torpaq ehtiyatlarının idarə edilməsi strategiyalarına inteqrasiyası da daxil olmaqla məsələyə daha məsuliyyətli yanaşmağa çağırırlar.

## BƏT: Dünyada 138 milyon uşaq əmək istismarına məruz qalır

Dünyada təxminən 138 milyon uşaq əmək istismarına məruz qalır. Onlardan 54 milyonu həyat və sağlamlıq üçün təhlükəli şəraitdə işləyir.

AZƏRTAC BMT-nin məlumatına istinadla xəbər verir ki, bu rəqəmi Beynəlxalq Əmək Təşkilatının (BƏT) baş direktoru Jilber Unqbo açıqlayıb. O, mövcud vəziyyətin qəbuledilməz olduğunu və qlobal ictimaiyyətin təcili reaksiyasını tələb etdiyini vurğulayıb.

BƏT-in baş direktorunun müraciəti hər il iyunun 12-də qeyd olunan Ümumdünya Uşaq Əməyinə Qarşı Mübarizə Günündən əvvəl edilib. Həmin tarix uşaqların istismarı probleminə diqqət çəkmək və hökumətlərin, biznesin, vətəndaş cəmiyyətinin səylərini birləşdirmək üçün BƏT tərəfindən 2002-ci ildə təsis edilib.

Ümumdünya Günü dünyada milyonlarla uşağın təhlükəsiz mühitdə təhsil almaq, oynamaq və böyümək imkanından məhrum olduğunu xatırladır. Uşaq əməyi kənd təsərrüfatında, hasilat sənayesində və azyaşlıların xüsusilə həssas olduğu qeyri-rəsmi sektorda geniş yayılıb.

Builki tədbirlər "Uşaq əməyi üçün qırmızı kart: Uşaqlar üçün ədalətli şərait, böyüklər üçün layiqli iş" mövzusunda keçirilir, böyüklər üçün layiqli iş şəraitinin təmin edilməsi ilə yanaşı, uşaqlığın qorunmasının vacibliyini də vurğulayır. Bu yanaşma BƏT-in əsas tezisini əks etdirir: uşaq əməyi yoxsulluğun, məşğulluğun olmamasının və zəif sosial sistemlərin nəticəsidir və buna görə də kompleks cavab tədbirləri tələb edir.



BƏT-in rəhbəri çıxışında qeyd edib ki, Mərakeşin uşaq əməyinə qarşı mübarizə üzrə Qlobal Fəaliyyət Çərçivəsi valideynlər üçün layiqli iş yerlərini təmin etmək, uşaqların keyfiyyətli təhsilə çıxışını genişləndirmək, sosial müdafiə sistemlərini inkişaf etdirmək və qanunvericiliyi gücləndirmək də daxil olmaqla aydın və real plan təklif edir.

BƏT rəhbəri qlobal birliyin qətiyyətli və gecikmədən hərəkət etməli olduğunu vurğuladı. Onun sözlərinə görə, yalnız birgə səylər uşaq əməyinə son qoya bilər.

Jilber Unqbo vurğulayıb ki, qlobal birlik qətiyyətlə və gecikmədən hərəkətə keçməlidir. Onun sözlərinə görə, yalnız birgə səylər uşaq əməyinə son qoya bilər.

# Nüvə təhdidi pik həddə çatır

## Avropa ABŞ ilə "yarışa girib" - nəticə nə vəd edir?

Beynəlxalq aləm yenidən nüvə təhdidi ilə üz-üzədir. Qlobal rəqabətin hərbi müstəvidə yeni mərhələyə keçməsi ən təhlükəli və öldürücü silahdan istifadə gündəmini ortaya gətirib. Artıq bəzi dövlətlər bununla bağlı hərəkətə keçməyə çalışır. Qeyd edək ki, bir müddət əvvəl Fransanın ölkə hüdudlarından kənarda nüvə silahı yerləşdirməklə bağlı təşəbbüsü irəli sürülmüşdü. Fransanın təklifi bir sıra Avropa ölkələrinin marağına belə səbəb olmuşdu - prezident Emmanuel Makronun nüvə silahı daşımaq qabiliyyətinə malik "Rafale" təyyarələrinin tərəfdaş ölkələrin bazalarında yerləşdirmək ideyasına Almaniya, Niderland, Belçika, Yunanıstan, Polşa, İsveç və Danimarka həvəslə yanaşmışdı. ABŞ-ın "nüvə çətirinə" üstünlük verən bəzi ölkələr, o cümlədən İtaliya və Baltikyanı dövlətlər isə təşəbbüsü dəstəkləməmişdi.

**Vaşinqton nüvə əhatəsini genişləndirir...**

Bu ayın əvvəlində isə "Financial Times" qəzeti ABŞ administrasiyasının NATO-ya üzv olan Avropa dövlətlərində əlavə nüvə silahlarının yerləşdirilməsi ehtimalını müzakirə etdiyini yaymışdı. Qəzetin dərc etdiyi materialda müzakirələr barədə məlumatlı üç rəsmi şəxsə istinadla qeyd olunub: "ABŞ rəsmiləri nüvə silahına malik bombardmançı təyyarələrə ev sahibliyi edən mövcud altı ölkədən kənarda əlavə yerləşdirmələrə açıq olduqlarını bildiriblər".

Qəzet qeyd etmişdi ki, bu addım nüvə zərbələri endirə bilən ABŞ-ın ikiqat qabiliyyətli təyyarələrinin (DCA) daha çox ölkəni əhatə etməsini nəzərdə tutur. Məqalədə bildirilmişdi ki, NATO-nun şərq cinahında yerləşən dövlətlər, o cümlədən Polşa və Baltikyanı ölkələr potensial olaraq DCA bazalarına ev sahibliyi etməkdə maraqlıdır. Vurğulayaq ki, məsələ ilə bağlı Ağ Ev, Müdafiə Nazirliyi və NATO rəsmiləri hələ şərh verməyiblər. Pentaqonun siyasət rəhbəri Elbric Kolbi bundan əvvəl açıq şəkildə bildirib ki, ABŞ-nin Avropa müttəfiqləri ənənəvi silahlı qüvvələrdə liderliyi ələ alsalar da, Vaşinqton NATO üzvlərini qorumaq üçün nüvə silahlarından istifadə etməyə davam edəcək.

Qeyd edək ki, ABŞ 1950-ci illərdən bəri nüvə paylaşımı proqramının bir hissəsi olaraq Avropadakı NATO ölkələrinə nüvə silahları yerləşdirir. Hazırda Amerikanın B61 bombaları Belçika, Almaniya, İtaliya, Hollandiya və Türkiyədəki bazalarda yerləşir. Alyansın özü nüvə silahına malik deyil və Vaşinqton silahlara nəzarəti özündə saxlayır.

**ABŞ nüvə xərclərini artırıb...**

Bu arada ABŞ-ın 2025-ci ildə nüvə silahlarına xərcləri ötən illə müqayisədə 22 faiz artaraq 69,2 milyard dollara çatıb. Nüvə Silahlarının Ləğvi üzrə Beynəlxalq Kampaniyanın (İCAN) məlumatına görə, Vaşinqton nüvə arsenalına dünyanın qalan hissəsindən daha çox pul xərcləyib. Qeyd edək ki, 69,2 milyard dollar bütün digər nüvə güclərinin cəmindən çoxdur. Ümumilikdə, nüvə silahına malik doqquz ölkə (ABŞ, Rusiya, Çin, Birləşmiş Krallıq, Fransa, Hindistan, Pakistan, İsrail və Şimali Koreya) arsenallarına xərcləri 19 faiz artıraraq rekord həddə - 119 milyard dollara çatıb.



Çin bu siyahıda 13,5 milyard dollar xərcləyərək ikinci yeri tutub. Böyük Britaniya Rusiyanı keçərək 12,6 milyard dollarla ikinci, Fransa isə 7,7 milyard dollarla üçüncü yerə yüksəlib. İCAN hesabatında göstərilir ki, son beş ildə nüvə gücləri öz arsenallarına ümumilikdə 471 milyard dollar xərcləyiblər. 2025-ci ildə bir gündə nüvə silahlarına xərclənən məbləğ 2 milyon insanı bir il ərzində doyura bilər və illik xərclər BMT-nin 32 illik adi büdcəsini ödəyər.

**12 min 187 nüvə başlığı...**

Dünyada yaranan nüvə təhdidi təhlükəsi Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun (SİPRİ) analitikləri tərəfindən də təsdiqlənir. Vurğulanır ki, nüvə silahına malik dövlətlər getdikcə tərksilah öhdəliklərindən imtina edir və nüvə arsenallarını artırmağa başlayırlar. SIPRI-nin hesablamalarına görə, 2026-cı ilin yanvar ayı etibarilə dünyada 12 min 187 nüvə başlığı var idi ki, bu da 2025-ci ilin yanvar ayındakı saydan 54 ədəd azdır. Bunlardan 9745-i hərbi ehtiyatlardadır - yerləşdirilən döyüş başlıqları və əməliyyat yerləşdirmə qabiliyyətinə malik anbarlarda saxlanılır. Ballistik raketlərə yerləşdirilən 2100 ilə 2200 arasında döyüş başlığı isə yüksək əməliyyat hazırlığındadır. Bu döyüş başlıqlarının demək olar ki, əksəriyyəti Rusiya və ABŞ-da, daha az sayda isə Fransa və Birləşmiş Krallıqda saxlanılır. Analitiklər Çin və Hindistanın da ballistik raketlərə döyüş başlıqları yerləşdirməyə başladığını yazırlar. SİPRİ direktoru Kərim Haqqaq bildirib ki, bəzi dünya liderləri başqa dövlətin hücumuna qarşı müdafiənin təminatı kimi nüvə silahlarını ön plana çəkirlər. Lakin, milli strategiyalar üçün nüvə silahlarına etibar etmək nüvə risklərini əhəmiyyətli dərəcədə artıra bilər.

SİPRİ-nin baş tədqiqatçısı və Amerika Alimləri Federasiyasının (FAS) Nüvə Məlumat Layihəsinin direktoru Hans Kristensen isə bildirib ki, nüvə güclərinin tərksilah öhdəliklərindən imtina etdiyinə və nüvə imkanlarını getdikcə genişləndirdiyinə dair faktlar getdikcə daha çox artır. Dövlətlər nüvə həllərinə müraciət etməklə yeni risklər yaradır və silahlanma yarışını qızışdırırlar.

**START bitən kimi nüvə arsenalının artırılmasına start verildi...**

Qeyd edək ki, dünyadakı doqquz nüvə gücünün statusu 1968-ci il Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə (NPT) ilə təsbit edilib. Müqavilənin imzalanmasından bəri nüvə sınaqları keçirən ölkələr - Hindistan, Şimali Koreya və Pakistan - qeyri-rəsmi nüvə gücləri hesab olunurlar. İsrail isə istisna təşkil edir - onun nüvə sınaqları haqqında məlumat yoxdur. Rusiya və ABŞ dünyanın istifadəyə yararlı nüvə başlıqlarının təxminən 83 faizinə sahibdir. Onların birgə nüvə silahlarına sahibliyi digər ölkələrin arsenallarının artması səbəbindən tədricən azalır.

SİPRİ analitikləri qeyd edirlər ki, Rusiya və ABŞ hərbi arsenallarının ölçüləri 2025-ci ildə nisbətən sabit qalıb və ya az miqdarda artıb. Lakin hər iki dövlətin geniş modernləşdirmə proqramları gələcəkdə onların arsenallarının ölçüsünü və müxtəlifliyini artıracaq. Nüvə proqramları həmişə məxfiliklə əlaqələndirilib, lakin son illərdə nüvə silahına malik dövlətlər arsenallarının modernləşdirilməsi və genişləndirilməsində getdikcə strateji qeyri-müəyyənlik və qeyri-şəffaflıqdan istifadə edirlər. Bu, qismən Yeni Strateji Silahların Azaldılması Müqaviləsinin (Yeni START) 2026-cı ilin fevral ayında bitməsi və nüvə gücləri arasında strateji dialoqun və ya birbaşa ünsiyyət kanallarının olmaması ilə əlaqədardır.

**Moskva etiraz edir - qlobal konsensus əldə olunmadı...**

Avropada gedən bu proses isə Moskva tərəfindən diqqətlə izlənilir. Belə ki, Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Andrey Belousov bildirib ki, Rusiya Amerika nüvə silahlarının Avropadan çıxarılmasını və onların yerləşdirilməsi üçün infrastrukturun sökülməsini tələb edir. Onun sözlərinə görə, Moskva bu cür silahları mahiyyətcə strateji hesab edir.

Xatırladaq ki, may ayında Nyu-Yorkda Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin (NPT) təxminən dörd həftə davam edən 11-ci İcmal Konfransı başa çatıb. İştirakçılar son beş il ərzində müqaviləyə riayət olunmasını qiymətləndirən yekun sənəd üzərində razılığa gələ bilməyiblər - konsensus əldə olunmayıb.

**Böyük Britaniya nüvədaşıyan təyyarələr alacaqmı?**

Bu arada Böyük Britaniya hökuməti vəsait çatışmazlığı səbəbindən B61-12 taktiki termonüvə bombaları daşıya bilən F-35A qırıcı təyyarələrinin alınmasını ləğv edə bilər. Bu barədə "The Telegraph" qəzeti hərbi mənbələrə istinadən məlumat verib. Bunlar iki Britaniya təyyarədaşıyan gəmisi, Kraliça Yelizaveta və Uels Şahzadəsindən idarə olunmaq üçün nəzərdə tutulmuş 138 F-35B daşıyıcı əsaslı qırıcı təyyarənin alınmasını tamamlamaq üçün nəzərdə tutulmuşdu. Daşıyıcı əsaslı versiya nüvə bombaları daşıya bilməz.

"The Telegraph"ın məlumatına görə, məsələ ilə bağlı Britaniyanın müdafiə naziri Con Healey ilə maliyyə naziri Reyçel Rivz arasında münaqişə yaranıb. Nəşr mənbələrə istinadən bildirib ki, Müdafiə Nazirliyi növbəti dörd il ərzində 28 milyard funt sterlinq maliyyə çatışmazlığı ilə üzləşəcək. Bu çatışmazlığın bir hissəsini kompensasiya etmək üçün digər nazirliklərin, xüsusən də Nəqliyyat Nazirliyi və Energetika Nazirliyinin proqramlarının büdcələri azaldılıb.

Qeyd edək ki, altıncı nəsil F-35A döyüş təyyarələri ABŞ-da istehsal olunur. ABŞ həmçinin bu təyyarələrin daşıya biləcəyi B61 nüvə bombasının təchizatına da nəzarət edir. 2025-ci ildə Böyük Britaniya bu təyyarələrdən 12-ni alacağını açıqlamışdı.

**P.İSMAYILOV**

# Yaxın Şərqdə gərginlik...

## Bir tərəfdə sülh danışıqları, digər tərəfdə raket hücumları...

Yaxın Şərqdə yenidən silah səsləri eşidilməyə başlayıb. Belə ki, iyunun 8-də Hörmüz boğazında Amerika Apaçi hərbi vertolyotu qəzaya uğrayıb. "The New York Times" qəzeti yazıb ki, ABŞ ordusu tərəfindən İranın Hörmüz boğazının bağlamasının qarşısını almaq üçün aparılan əməliyyatda Apache helikopterləri, MQ-9 Reaper dronları və F/A-18 və F-35 qırıcı təyyarələrindən istifadə edilib. NYT-nin məlumatına görə, bu, Yaxın Şərq müharibəsi dövründə ilk Apache itkisidir.

**Sanksiya altında olan Hindistan gəmisi vuruldu...**

Bundan əvvəl isə beynəlxalq mətbuatın yazdığına görə, ABŞ-ın sanksiyaları altında olan "Marivex" gəmisi Oman sahillərində hücuma məruz qalıb. Məlumat Hindistan dənizçilərinin həmkarlar ittifaqı təşkilatına (Hindistanın İrəli Dənizçilər İttifaqı) istinadən yayılıb. Bildirilib ki, gəmidə 24 hindistanlı dənizçi olub. Xarici medianın məlumatında bildirilib ki, qəza çağırışının stenoqramına görə, hücumdan sonra gəmidə yanğın baş verib. Ekipaj ABŞ Hərbi Dəniz Qüvvələrinin raketinin maşın otağına dəydiyini və bunun gəmidə yanğına səbəb olduğunu, gəminin batırılmaqla hədələndiyini bildirib. Qeyd edək ki, "Marivex" tankeri Palau bayrağı altında hərəkət edir. Gəminin sahibi İranla bağlı məhdudiyyətlərin bir hissəsi kimi Amerikanın sanksiyalar siyahısına daxil edilib. Gəminin özü ötən ilin dekabrında ABŞ Maliyyə Nazirliyinin sanksiyalarına məruz qalıb. Hindistan Sahil Mühafizəsinin mətbuat xidməti X-də bildirib ki, hücuma məruz qalan "Marivex" gəmisinin iyirmi dörd ekipajı Oman Hərbi Hava Qüvvələrinin helikopterləri tərəfindən təxliyə edilib.



**Sirik və Bəndər Kuhestəkdəki iki su anbarı vuruldu...**

ABŞ iyunun 10-u gecəsi Apaçi helikopterinin vurulmasına cavab olaraq İrana qarşı zərbələr endirib. ABŞ prezidenti Donald Tramp İrana qarşı cavabı zəruri hesab etdiyini bildirib. "Cavab çox güclü, çox güclü olmalıdır və indi də məhz belədir",- deyə o, bildirib. ABŞ Mərkəzi Komandanlığı əməliyyatı "özünümüdafiə" və "mütənasib cavab" adlandırıb. Zərbələr hava hücumundan müdafiə obyektlərini və radar stansiyalarını hədəf alıb. İran da öz növbəsində helikopterə hücumun qəsdən olmadığını bildirib və "qətiyyətli cavab" vəd edib.

Adının çəkilməyini istəməyən ABŞ rəsmisi CNN-ə bildirib ki, yeni zərbələr İrana qarşı "xəbərdarlıq atəşi" kimi nəzərdə tutulub və deyib ki, Ağ Ev onların müharibəyə son qoymaq üçün danışıqları pozmayacağına inanır. "Fox News"un məlumatına görə, ABŞ ordusu İranın radar və hava hücumundan müdafiə sistemlərini hədəf alıb. İranın Fars xəbər agentliyi ABŞ-ın İranın cənubuna üç hücum dalğası barədə məlumat verib. IRIB-in məlumatına görə, ABŞ-ın zərbələri Sirik və Bəndər Kuhestəkdəki iki su anbarını tamamilə məhv edib və əhalini içməli su ilə təmin etmək üçün işlər başlayıb. Tasnim xəbər agentliyinin məlumatına görə, ABŞ qırıcı təyyarələrinin hücumuna məruz qalan Qeşm adasında və Sirik rayonunda da partlayışlar qeydə alınıb.

**İran ABŞ bazalarını vurur**

Tehran isə öz növbəsində Amerika ordusunun hücumuna qətiyyətli cavab verəcəyini yayıb. ABŞ zərbələrindən sonra İranın xarici işlər naziri Abbas Əraqçi İran ordusunun heç bir hücumu və ya təhdidi cavabsız qoymayacağını bildirib. "Döyüş meydanındakı məğlubiyyətlərinə baxmayaraq, ABŞ qətiyyətimizi sınamaq qərarına gəlib. Güclü silahlı qüvvələrimiz heç bir hücumu və ya təhdidi cavabsız qoymayacaq. Təhlükəsiz olmaq istəyirsinizsə, bölgəmizi tərk edin", - deyə o, X sosial media səhifəsində yazıb.

İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) İordaniyanın Əl-Əzraq bölgəsindəki hava bazasında və komandanlıq və idarəetmə mərkəzində F-35 qırıcı təyyarələrinin anqarları da daxil olmaqla, dörd Amerika hədəfinə uzaqmənzilli raket zərbələri endirib. İİKK-nın mətbuat xidməti bu barədə Telegram kanalında məlumat verib. Qeyd olunub ki, bu, 10 iyun gecəsi ABŞ-ın İran ərazisinə endirdiyi zərbələrə cavab olaraq edilib. Qeyd edək ki, daha əvvəl İİKK Cəm şəhəri üzərində MQ-9 pilotsuz təyyarəsinin tutulduğunu, eləcə də bölgədəki Amerika hava və dəniz bazalarında 21 hədəfin vurulduğunu bildirmişdi. Bu arada, Bəhreyn və Küveytdəki hava hücumlarından müdafiə sistemləri də İranın hücumları səbəbindən aktivləşdirilib. "Axios"un məlumatına görə, Bəhreyn və Küveyt hərbçiləri İran hücumlarını dəf edib. Küveyt Ordusu "X" sosial media platformasında ölkənin hava hücumlarından müdafiə sistemlərinin hava hədəflərinə atəş açdığını elan edib. Nəşr bildirib ki, "Küveyt hava hücumlarından müdafiə sistemləri hazırda təsdiq edilmiş əməliyyat prosedurlarına uyğun olaraq hava hədəflərini zərərsizləşdirir ".

Reuters agentliyi Bəhreyn kralının müşavirinə istinadən bildirib ki, Bəhreynin hava hücumlarından müdafiə sistemləri də İran hücumlarını dəf edir. Agentlik bildirib ki, "Bəhreynin hava hücumlarından müdafiə sistemləri İran hücumlarını dəf edir". Ölkənin Daxili İşlər Nazirliyi sakinlərə milli təhlükəsizlik xəbərdarlığı ilə bağlı çağırış edib. Nazirlik X-də yazıb: "Siren səsi eşidilib. Vətəndaşlara və sakinlərə sakit qalmağa və ən yaxın təhlükəsiz yerə getməyə çağırılır".

**Nüvə razılaşması və 4 mərhələli həll planı...**

Bu gərginliyin fonunda isə ABŞ ilə İran arasında gedən danışıqların bəzi məqamları da bəlli olub. "The New York Times" (NYT) Amerika rəsmiləri arasındakı mənbələrə istinadən yazır ki, ABŞ və İran danışıqlar nəticəsində müharibəni dayandırmaq üçün nəzərdə tutulan nüvə silahı üzrə razılaşmanın qeyri-müəyyən konturları üzrə razılığa nail olublar. Belə ki, NYT -yə görə, Vaşinqton və Tehran uranın zənginləşdirilməsinə moratorium, İranın nüvə obyektlərinin sökülməsi və MAQATE tərəfindən təcili yoxlamalar daxil olmaqla nüvə sazişinin "qeyri-müəyyən konturları" barədə konsorsium əldə ediblər. Nəşrin həmsöhbətləri danışıqların dörd əsas məqamını qeyd ediblər.

1. Uranın zənginləşdirilməsinin uzun müddətə dayandırılması.

Bir neçə aydır ki, ABŞ İrandan uranın ən azı 20 il zənginləşdirilməsini dayandırmağı tələb edib. İran on illik moratorium təklif etməklə cavab verdi, lakin ABŞ rəsmiləri hesab edir ki, 15 illik müddət razılaşdırıla bilər.

2. Uranın zənginləşdirilməsinin "səviyyəsinin aşağı salınması".

ABŞ İranın əlində olan uranın zənginləşdirilməsi səviyyəsini azaltmaq üçün Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) ilə əməkdaşlıq etmək və bunda fəal rol oynamaq niyyətindədir. Tehran isə ABŞ-ın yalnız müşahidəçi ola biləcəyini təkid edir. İran hakimiyyəti öz uran ehtiyatlarından imtina etməyə hazır olduqlarını açıq şəkildə təsdiqləməyib.

3. İranın nüvə obyektlərinin sökülməsi.

ABŞ İrandan Natanz, Fordo və İsfahandakı üç əsas nüvə obyektini ləğv etməyi tələb edir. Onlar keçən il Amerikanın "Gecəyarısı çəkic" əməliyyatı çərçivəsində vurulub. İran iki obyektin sökülməsini müzakirə edib, lakin qismən "zənginləşmə hüququnun" qorunduğunu nümayiş etdirmək üçün birini açıq saxlamaqda israr edir.

4. İranın gözlənilməz yoxlamalara razılığı.

Birləşmiş Ştatlar tələb edir ki, beynəlxalq müfəttişlər istənilən vaxt İranın istənilən yerində plandankənar yoxlamalar apara bilsinlər. Nəşr qeyd edir ki, bir çox şübhəli nüvə obyektləri İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) hərbi bazalarında yerləşir və burada müfəttişlərə nadir hallarda icazə verilirdi.

Bundan əvvəl ABŞ prezidenti Donald Tramp İranla iki həftə ərzində razılaşma əldə olunacağını bildirmişdi. "Bu, tam qələbə olacaq, çox yaxında gələcək və neftin qiyməti aşağı düşəcək", - deyə o vurğulamışdı. Tramp həmçinin qeyd etmişdi ki, Vaşinqton və Tehran arasında substantiv danışıqlar uğursuz olarsa, Amerika tərəfi hərbi problemləri həll etmək və ya İranın blokadasını davam etdirmək üçün xüsusi təyinatlıların əməliyyatını təşkil edə bilər. Amerika lideri həmçinin ABŞ-ın sülh sazişindən asılı olmayaraq İrandan uranı çıxaracağını demişdi. Xatırladaq ki, zənginləşdirilmiş uranla bağlı məsələ tərəflər arasında ən aktual müzakirə mövzularından biridir. Tehran ehtiyatlarını Vaşinqtona ötürməyəcəyini, lakin bu maddənin üçüncü ölkələrə, o cümlədən Rusiyaya ixracına icazə verdiyini vurğulamışdı. İyunun əvvəlində Fars agentliyi İranın danışıqlar qrupunun üzvü Səid Adjarloya istinadən yazmışdı ki, İran ABŞ-a sülh sazişi üçün dörd mərhələli plan təklif edib. Birinci mərhələdə müharibənin dayandırılması və bütün hərbi əməliyyatların tam dayandırılması, ikinci mərhələdə Hörmüz boğazı ilə bağlı məsələlər, üçüncü mərhələdə daha geniş sanksiyalar və nüvə məsələləri, yekun mərhələdə isə sazişin icrasına nəzarət etmək üçün monitorinq komitəsinin yaradılması nəzərdə tutulur.

**P.İSMAYILOV**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**
“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744
1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



# Səssiz qalmış irs: Unudulmuş milli çalğı alətləri



Azərbaycan musiqi mədəniyyəti qədim köklərə söykənən zəngin irsdir. Bu irs əsrlər boyu xalqın həyat tərzini, düşüncə dünyasını və estetik zövqünü formalaşdırıb. O cümlədən milli çalğı alətlərimiz yalnız keçmişin musiqi vasitələri deyil, həm də milli yaddaşın daşıyıcılarıdır. Vaxtilə Azərbaycanda qopuz, çoğur, rübab, səntur, çəng, rud kimi çalğı alətləri geniş istifadə olunub. Lakin zaman keçdikcə bu musiqi alətlərinin bir qismi gündəlik istifadədən çıxaraq unudulub.

Ən qədim simli çalğı alətlərindən biri də qopuzdur. Onun yaranma tarixi eramızdan çox-çox əvvəllərə aid edilir. 1960-cı ildə ABŞ arxeoloqlarının Cənubi Azərbaycanın Şuşdağı ərazisində apardıqları qazıntılar zamanı 6-cı minilliyə aid mədəniyyət nümunələri aşkar edilmişdir. Bu tapıntılardan biri də üzərində qopuz tutmuş ozanın təsvir edildiyi saxsı qabdır. Zamanla qopuzun yerini daha təkmilləşmiş musiqi aləti olan saz tutmuş, bu ənənə aşıq sənətində davam etdirilmişdir.

Rübab Şərq musiqi mədəniyyətində geniş yayılmış qədim simli musiqi alətlərindən biridir. Orta əsrlərdə Azərbaycanda da istifadə edilən bu alət incə və melodik səs tembri ilə seçilib, xüsusilə saray və klassik musiqi mühitində yer alıb. Lakin zaman keçdikcə musiqi zövqünün dəyişməsi və daha müasir simli alətlərin - xüsusilə tar və sazın geniş yayılması nəticəsində rübabın istifadəsi tədricən azalmışdır.

Səntur qədim mənşəyə malik olan, əsasən, Şərq xalqları arasında geniş yayılmış zərbli simli musiqi alətidir. Bu alət xüsusilə İran, Azərbaycan, Hindistan, İraq və Türkiyə kimi ölkələrdə müxtəlif formalarda istifadə olunub. Azərbaycanda səntur əvvəllər daha geniş yayılmış, lakin zaman keçdikcə tar, kamança və digər alətlərlə əvəzlənmişdir.

Qədim dövrlərdə saray və klassik musiqi mühitində geniş istifadə olunan bu alətlər, zamanla musiqi zövqünün dəyişməsi və yeni alətlərin yaranması nəticəsində istifadədən çıxmışdır. Bu proses təkcə musiqi inkişafı ilə deyil, həm də sosial və mədəni dəyişikliklərlə bağlıdır.

Bununla belə, Azərbaycan dövləti milli mədəniyyətimizə davamlı qayğı göstərilməsini, mədəni irsin qorunmasını daim prioritet istiqamətlərdən biri kimi müəyyən edib. Bu mövzu ilə bağlı Ümummilli Lider Heydər Əliyevin mədəniyyət haqqında fikri də xüsusi əhəmiyyət daşıyır: “Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir. Mədəniyyət hər bir xalqı dünyada daha da çox tanıdan, onu təbliğ edən vasitələrdən biridir. Biz isə xoşbəxtik ki, xalqımızın belə zəngin mədəniyyəti, musiqisi, incəsənəti var və bunlar həm xalqımızın özünə mənəvi qida verir, həm də onu dünya xalqları içərisində fərqləndirir, tanıdır, başını ucaldır”.

Bu siyasətin nəticəsi olaraq ölkədə mədəniyyət tədbirlərində milli alətlərdən istifadə olunmasına geniş yer verilir. Eyni zamanda, muzeylər və mədəniyyət mərkəzləri vasitəsilə unudulmaqda olan musiqi alətləri yenidən ictimaiyyətə təqdim olunur. Qədim musiqi alətlərinin araşdırılması və qorunması təkcə mədəni məsələ deyil, həm də milli kimliyin və dövlətçilik ideologiyasının mühüm tərkib hissəsidir. Keçmişin səslərini yaşatmaq gələcək nəsillərə zəngin mədəni irs ötürmək deməkdir.

***Ramidə ƏLİYEVA,***
***Bakı Dövlət Universitetinin tələbəsi***

# Günəşin zərərli şüalarından necə qorunaq?

## Saxta SPF-lərin gizli təhlükəsi...

Günəş bəşəriyyətin varlığından bəri həyatın, enerjinin və canlılığın simvolu hesab olunur. Yer üzündə həyatın davam etməsi, bitkilərin inkişafı, ekosistemin tarazlığının qorunması və insan orqanizminin normal fəaliyyəti bilavasitə Günəşdən asılıdır. Mütəxəssislərin fikrincə, Günəş şüaları insanın fiziki sağlamlığı ilə yanaşı, psixoloji vəziyyətinə də müsbət təsir göstərərək stress və depressiya riskinin azalmasına kömək edir. Eyni zamanda, D vitamininin təbii mənbəyi olan Günəş şüalarının immun sistemini gücləndirdiyi, qan dövranını yaxşılaşdırdığı və müəyyən bakteriyalara qarşı qoruyucu təsir göstərdiyi də elmi araşdırmalarla təsdiqlənib.

Lakin bütün bu faydalarla yanaşı, Günəşin görünməyən təhlükələri də mövcuddur. Son illər iqlim dəyişikliklərinin təsiri, ozon təbəqəsinin nazilməsi və ultrabənövşəyi şüalanmanın artması nəticəsində insan sağlamlığı üçün risklər də çoxalmaqdadır. Xüsusilə yay aylarında və havaların kəskin istiləşdiyi dövrlərdə Günəş şüalarına həssas olan insanların sayı artır, onların dərisində qızartı, qaşınma, səpkilər və digər allergik reaksiyalar müşahidə olunur. Bəzən sadə narahatlıq kimi görünən bu hallar vaxtında tədbir görülmədikdə daha ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Bəs Günəş allergiyası nədir, hansı əlamətlərlə özünü göstərir və bu problemdən qorunmaq üçün nələrə diqqət yetirmək lazımdır?

Məlumdur ki, isti havalarda günəş kremindən istifadə vacibdir. Ancaq bu zaman ciddi səhvlərə də yol verilir. Məsələn, keyfiyyətsiz və saxta Günəş kremlərindən istifadə bir çox fəsadlara gətirib çıxara bilər. Ona görə də orijinal kremlərdən istifadə vacibdir.

Qeyd edək ki, günəşdən qoruyucu kremlərin effektivliyi SPF faktoru ilə hesablanır. SPF günəşin zərərli ultrabənövşəyi şüalarının yaratdığı qızartıları dayandırmaq qabiliyyətinə görə hesablanır. SPF 4-dən 12-yə kimi minimum qorunma, SPF 12-dən 30-a kimi orta dərəcədə qorunma, 30 və yuxarı isə yüksək qorunma kimi hesablanır.

**SPF kremlərin əks təsirləri**

Günəş kremləri bəzən arzuolunmaz yan təsirlərə səbəb olur. Qoruyucu kremlərin tərkibindəki maddələrə qarşı allergik reaksiya yarana bilər. Klinik olaraq qoruyucu kremin tətbiq olunduğu bölgədə qızartı, qaşınma və sulanma kimi reaksiyalar görünə bilər. Xüsusilə qoruyucu tərkibdə istifadə edilən PABA allergik reaksiyaya səbəb ola bilən bir maddədir. Allergiyası olan insanlar günəşdən qoruyucu seçərkən hipoalerjenik etiketli məhsulları seçməlidirlər. İnsanın dəri tipinə uyğun məhsul seçmək çox vacibdir.

Günəşdən qoruyucu kremlər gözlərlə təmasda olduqda göz ağrısı və qıcıqlanma, işığa qarşı həssaslığa səbəb ola bilər. Odur ki, qoruyucuların gözlərlə təmasının qarşısı alınmalı, təmasda olduqda gözlər dərhal bol su ilə yuyulmalı və həkimə müraciət edilməlidir.

**Kremi seçərkən nələrə diqqət edilməlidir?**

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən kosmetoloq-həkim Nərgiz Zeynalovanın sözlərinə görə, Günəşdən qoruyucu vasitə dözümlü, toksik olmayan, fotosabit olmalı, dəridə yanmaya səbəb olmamalıdır, suya və tərə davamlı olmalıdır. Kosmetoloq qeyd edib ki, istifadə müddəti bitmiş Günəş kremi dəri üçün çox təhlükəli ola bilər: “İsti mühitlərdə günəşdən qoruyucu kremlər daha qısa müddətdə təsirini itirir. Günəşdən qoruyucu vasitələr - losyonlar, kremlər, gellər, məlhəmlər, mum çubuqları və spreylər şəklində mövcuddur. İnsanlar dəri tiplərinə uyğun Günəş kreminə üstünlük verməlidirlər. Kremlər quru dərilər üçün, gellər baş dərisi və ya tüklü bölgələr üçün, çubuqlar göz ətrafında istifadə üçün uyğundur”.

**SPF kremlərin düzgün istifadəsi**

N.Zeynalovanın sözlərinə görə, Günəşdən qorunmaqla bağlı insanların səhv bildiyi məlumatlar var: “SPF kremlərini ancaq çölə çıxanda vura bilərəm” ifadəsi yanlışdır. Günəşdən qoruyucu məhsulları çöldə deyil, günəşə çıxmadan təxminən 30 dəqiqə əvvəl evdə çəkmək lazımdır. Çünki günəşdən qoruyucu məhsullar ancaq bu müddətdə dəridən sorularaq effektli olur. Kremləri dəriyə elə



çəkmək lazımdır ki, bütün dərini əhatə etsin”.

**Hər iki saatdan bir...**

Kremi gün ərzində yalnız bir dəfə çəkməyin düzgün olmadığını vurğulayan kosmetoloq bildirib ki, SPF-ləri gündə bir dəfə istifadə etmək effektli olmaz: “Bu səbəbdən yayda kremi dəriyə hər iki saatdan bir çəkmək məsləhətdir. Dənizə və ya hovuza gedəndə isə bunu daha tez-tez etmək lazımdır. Daha yüksək dərəcəli kremlər istifadə etmək məsləhətlidir. Ona görə də SPF-in dərəcəsinə xüsusi diqqət etmək lazımdır. İnsanlar adətən qoruyucu kremlər alarkən tərkibinə elə də ciddi fikir vermirlər. Sadəcə, SPF sözünü görüb kifayətlənirlər. Ola bilər ki, nəmləndirici kremin tərkibində SPF olsun. Təbii ki, o krem gündən qorunmaq üçün köməkçi vasitə deyil. Ona görə də üzərində “gündən qoruyucu” sözləri yazılmış kremlərdən istifadə etmək lazımdır. Azərbaycan ərazisində SPF dərəcəsi 50-dən çox olan kremlər daha yaxşı hesab edilir. Ən azı, SPF 30 olmalıdır. Bir faktı da qeyd edim ki, hər 2 saatda bir çəkilən 30 dərəcəli krem yalnız bir dəfə sürtülən 100 dərəcəli SPF-dən daha təsirlidir”.

**Saxta kremlər...**

Kosmetoloq həmçinin saxta Günəş kremlərinin dəriyə ziyanları barədə danışıb: “Təəssüf ki, bəzən insanlar qiyməti daha ucuz olan məhsullara üstünlük verirlər. Lakin ucuz və keyfiyyətsiz Günəş kremlərinin dəridə müxtəlif xəstəliklər yarada biləcəyinin fərqində deyillər. Hətta belə kremlər dəri xərçənginə səbəb ola bilər”.

**Məhsulun orijinal olduğunu necə bilək?**

N.Zeynalovanın sözlərinə görə, yadda saxlamaq lazımdır ki, orijinal və keyfiyyətli məhsullar, həmçinin Günəş kremləri heç vaxt aşağı qiymətə satıla bilməz: “Axı heç bir mağaza öz ziyanına işləməz. Saxta malın qiyməti çox ucuz olur. Odur ki, şübhəli satış nöqtələrindən məhsullar almaq məsləhət deyil. Təəssüf ki, saxta mallarla hətta sanballı mağazalarda da təsadüf etmək olar. Ona görə də məhsulu almazdan əvvəl brendlərin rəsmi saytına daxil olub, sertifikatlaşdırılmış satış nöqtələrinin yerini öyrənmək lazımdır. Alıcılar ən yaxşı çıxış yolu kimi mağazadan aldığı məhsulların sertifikatını tələb edə bilər. Vicdanlı satıcı heç bir problem olmadan həmin sertifikatı təqdim edəcək”.

***Yeganə BAYRAMOVA***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5361
Sifariş: 733
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova